**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**EYNULLA YADULLA oğlu MƏDƏTLİ**

# XX ƏSR AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ İRAN TARİXŞÜNASLIĞINDA

**İxtisas: 5503.02 – Vətən tarixi**
**5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2018**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Mənbəşünaslıq və tarixşünaslıq" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi məsləhətçi:** **Y.M.Mahmudov**
*AMEA-nın həqiqi üzvü*
*Əməkdar elm xadimi,*
*Dövlət mükafatı laureatı*

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru, akademik* **İ.M.Hacıyev**
*Tarix üzrə elmlər doktoru* **T.H.Nəcəfli**
*Tarix üzrə elmlər doktoru* **M.S.Süleymanov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix"kafedrası.

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________2018-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2018-ci ildə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının
elmi katibi tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli tariximizin bir çox problemlərini, o cümlədən mürəkkəb və keşməkeşli hadisələrlə dolu olan XX əsr Azərbaycanın siyasi tarixini yenidən araşdırmaq və öyrənmək üçün geniş imkanlar açıldı. Tarixşünaslıq və mənbəşünaslıq problemi Azərbaycan tarixinin müxtəlif dövrlərini tədqiq etmək üçün mühüm elmi istiqamətlərdən biridir. Bu baxımdan Azərbaycan milli tarixinin müxtəlif problemlərinin tədqiqinə həsr olunmuş elmi əsərlərin öyrənilməsi, o cümlədən İran tarixşünalığında Azərbaycan tarixi məsələlərinin araşdırılması müasir milli tarixşünaslığımız üçün həm elmi, həm də siyasi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının beynəlxalq birliyin fəal subyektinə çevrilməsi, hümanitar, elmi və mədəni əlaqələrinin genişlənməsi tarixi tədqiqatların daha da dərinləşməsinə şərait yaratdı. Azərbaycan Respublikasında və keçmiş SSRİ məkanında indiyə qədər məxfi qriflər altında saxlanılan tarixi sənədləri üzə çıxarıb öyrənməklə yanaşı, xarici ölkələrdə Azərbaycanın qədim, orta əsrlər və yeni dövr tarixinə aid qiymətli mənbələrlə, həmin ölkələrdə Azərbaycan tarixinə həsr edilmiş əsərlərlə ətraflı tanış olmaq, olardan bəhrələnmək imkanı qazandılar. Bu baxımdan, qonşu İran İslam Respublikasında Azərbaycan tarixi ilə bağlı aparılan tədqiqatların öyrənilməsi və təhlili mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, Azərbaycan və İran xalqlarını uzunmüddətli ümumi tarix, dini, mədəni-mənəvi dəyərlər birləşdirir. Hər iki xalq bir çox əsrlər ərzində eyni sülalələrin və dövlətlərin tərkibində olmuş, birgə taleni yaşamışlar. Buna görə də, Azərbaycan tarixi ilə bağlı çoxsaylı mənbələr məhz fars dilində yazılmış və indiyə qədər İranın müxtəlif arxivlərində, kitabxanalarında, elmi mərkəzlərində saxlanılır. Onların əksəriyyəti müəyyən səbəblərdən müasir Azərbaycan tarixşünaslığı üçün hələlik əlçatmaz olduğundan bu mənbələr və onlardakı materiallarla biz İran tarixçilərinin əsərləri vasitəsi ilə tanış ola bilirik. İran tarixçilərinin Azərbaycan xalqının tarixi keçmişi və müasir inkişaf dövrü ilə bağlı mühakimələri və fikirləri bu baxımdan böyük əhəmiyyət kəsb edir. Bu əsərlər Azərbaycan tarixinin müxtəlif məsələlərinə yenidən nəzər salmağa və dəyərləndirməyə kömək edir.

Tədqiq olunan mövzu Azərbaycan tarixinin öyrənilməsi zəruri olan mühüm problemləri sırasındadır. Belə ki, xalqımızın etnogenezi məsələsi, XX əsr tarixinin dərindən araşdırılması, Cənubi Azərbaycan tarixinin, o

cümlədən milli-demokratik hərəkatın dərindən tədqiqi həmişə öz aktuallığını qoruyub saxlamışdır. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə Azərbaycan tarixinin dərindən və obyektiv öyrənilməsi zəruriliyinə diqqəti cəlb edərək göstərirdi ki, bizim tariximiz – həm qədim tariximiz, həm də son dövrlərin, yəni XIX-XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Heydər Əliyev Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsi ilə bağlı tarixçilər qarşısında konkret vəzifələr qoyaraq vurğulayırdı: "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür"[1] .

Bu baxımdan İranda Azərbaycan tarixinə həsr edilmiş əsərlərin hərtərəfli və dərin təhlili müasir tariximizin bir sıra məsələlərinə aydınlıq gətirməklə yanaşı, həm də Azərbaycan tarixinin müxtəlif problemlərinin öyrənilməsində bu əsərlərin əhəmiyyətini üzə çıxarmağa və müəyyənləşdirməyə imkan verir.

Tədqiq olunan mövzunun aktuallığı həm elmi araşdırma zərurəti, həm də siyasi-ideoloji amillərlə şərtlənir. Yüz illik tarixə malik müasir İran tarixşünaslığının əksər nümayəndələri, xüsusən paniranist mövqedən çıxış edən, fars millətçi-şovinist əhval-ruhiyyəli tarixçilər Azərbaycan tarixini saxtalaşdırmaq, bununla da, Azərbaycan xalqının keçmişinə və gələcəyinə kölgə salmaq üçün dəridən-qabıqdan çıxırlar. Bu tarixçilər, Azərbaycan türklərinin müstəqil xalq olmadığını, Arazdan şimaldakı torpaqların heç zaman Azərbaycan adlanmadığını, ermənilərin iddia etdikləri Qarabağın və Naxçıvanın Azərbaycana məxsus olmadığını "sübut etmək" üçün bütün vasitələrə əl atmaqdan çəkinmirlər.

XX əsrin sonlarında tarixi Azərbaycan torpaqlarının şimalında – Böyük Azərbaycanın kiçik bir hissəsində dövlətçiliyimiz dirçəldikdən sonra İran saxtakarlarının Azərbaycan xalqının tarixi reallıqlarına hücumları daha mütəmadi xarakter almışdır. Qonşu ölkənin hakim dairələri tərəfindən istiqamətləndirilən və şirnikləndirilən bəzi İran tarixçiləri Azərbaycan tarixini saxtalaşdırmaq sahəsində son dərəcə canfəşanlıq edirlər. Yumşaq deyilsə,

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun 1993-may 1994. I Kitab. Bakı: Azərnəşr, 1997, s. 155-156.

Azərbaycan xalqının tarixi keçmişini saxtalaşdırmaq İranda sanki bir peşə sahəsinə çevrilmişdir.

Nə qədər acı olsa da, bu da bir həqiqətdir ki, Azərbaycan xalqının qədim və zəngin tarixinə, azadlıq mübarizəsinə, müstəqillik və inkişaf sahəsindəki fəaliyyətlərinə ləkə salanlar arasında İranın Azərbaycan əsilli tarixçiləri xüsusi canfəşanlıq edirlər. Əsası Əhməd Kəsrəvi tərəfindən qoyulmuş qeyri-elmi nəzəriyyəni davam etdirən bu üzdəniraq tarixçilərin Azərbaycan xalqının mənşəyinin, tarixinin, coğrafiyasının saxtalaşdırılmasına yönəlmiş fikirləri elə erməni tarixçilərinin, ideoloqlarının iddiaları ilə tam üst-üstə düşür, əksər hallarda isə bu əsassız müddəalar bir-birindən qaynaqlanır. Buna görə də İran tarixşünaslığının bir sıra nümayəndələrinin Azərbaycanın tarixi, bu günü ilə bağlı böhtan və uydurmalarına cavab vermək Azərbaycan tarixşünaslığı qarşısında duran vacib məsələlərdən biridir.

Mövzunun aktuallığını səciyyələndirən amillərdən biri də İranda yaşayan çoxmilyonlu etnik azərbaycanlıların mövcudluğu faktıdır. İran tarixşünaslığı cənubdakı Azərbaycan türklərinin farslarla eyni mənşədən – ari irqindən olduqlarını və yalnız orta əsrlərdə türkləşdiklərini, cənubda və şimalda yaşayan azərbaycanlıların müxtəlif etnik köklərə malik olduğunu, Cənubi Azərbaycanda heç zaman milli-siyasi hərəkatların olmadığını və ya bu hərəkatların yalnız xaricdən qaynaqlandığını iddia edirlər. Rəsmi dairələr bununla cənubluların milli şüurunun artmasının, öz milli hüquqları uğrunda mübarizəyə qalxmalarının, onların Şimali Azərbaycanın demokratik, bütöv və inkişaf etmiş cəmiyyətinə meyl etmələrinin qarşısını almağa çalışırlar. İran hökuməti etnik tərkibdən qaynaqlanan və bu əsasda daxildə yarana biləcək gələcək təhlükələri ilk növbədə Azərbaycan dövlətinin varlığı və inkişafı ilə bağlayır, etnik azərbaycanlıların İranın ərazi bütövlüyünü və sabitliyini nə zamansa poza biləcəyini proqnozlaşdırır, İranın təhlükəsizliyini Azərbaycan dövlətinin və bu ölkədə yaşayan çoxsaylı etnik azərbaycanlıların vəziyyəti ilə birbaşa bağlayırlar.

İran İslam Respublikası özünəməxsus siyasi sistemə malik teokratik dövlət olduğundan ictimai rəydə, eləcə də tarixi məsələlərdə öz əksini tapan fikirlər bir qayda olaraq dövlətin rəsmi mövqeyi ilə eyniyyət təşkil edir. Ona görə də, İran tarixçilərinin Azərbaycanla bağlı irəli sürdüyü iddiaları Azərbaycan Respublikasının ictimai fikri bir çox hallarda İranın rəsmi mövqeyi kimi də qəbul edir. Bu fikir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsil mahiyyəti, Azərbaycanın tarixi ilə bağlı İranda nəşr edilmiş bir sıra əsərlərdə, kütləvi informasiya vasitələrində yer alan məlumatlara da aiddir. Halbuki, İran dövləti dəfələrlə Dağlıq Qarabağ mü-

naqişəsinin dinc yolla, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu bildirmişdir. Eyni sözləri Azərbaycanın Naxçıvan bölgəsinin tarixinə dair İran tarixşünaslığında mövcud olan yanaşmalarla əlaqədar da söyləmək olar. İran tarixşünaslığında və müasir tarixi-siyasi araşdırmalarda, həmçinin ölkənin kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ münaqişəsinə münasibətdə rəsmi sayılmayan, ancaq müəyyən siyasi dairələr tərəfindən kifayət dərəcədə dəstəklənən və bu dairələrin mövqeyini əks etdirən yanaşmalar mövcuddur. Bu yanaşmalar heç də İranın Azərbaycan Respublikasına dost münasibət bəsləməsi haqqında bəyanatları ilə uzlaşmır. Yaxud, İranı təmsil edən rəsmi və ictimai strukturların Dağlıq Qarabağ münaqişəsi kimi həssas bir məsələdə tez-tez ziddiyyətli mövqe nümayiş etdirməsi, bu ölkənin Ermənistanla münasibətlərinin strateji səviyyəyə çatdırılması və iki ölkə arasındakı iqtisadi, mədəni, hərbi və təhlükəsizlik sahəsində tərəfdaşlığın rəsmi İrəvan tərəfindən Azərbaycana qarşı istifadə edilməsi və s. istər-istəməz Azərbaycan ictimaiyyətində narazılıq doğurur. Təsadüfi deyil ki, Ermənistan rəhbərliyi dəfələrlə İranı öz ölkəsinin "regiondakı ən sadiq tərəfdaşı" adlandırmış, Qarabağ məsələsində nümayiş etdirdiyi "balanslaşdırılmış" mövqeyə görə İrana xüsusi minnətdarlıq etmişdir.

Araşdırılan mövzu Azərbaycan tarixinin öyrənilməsi zəruri olan mühüm problemləri sırasındadır. Belə ki, azərbaycanlıların (Azərbaycan türklərinin) etnogenezinin formalaşması məsələsi, Azərbaycan tarixi üzrə yeni və fərqli məlumatların əldə edilməsi, Cənubi Azərbaycan tarixinin tədqiq edilməsi və öyrənilməsi, XX əsr boyu Azərbaycanda milli demokratik hərəkatın dirçəlişi və inkişafı, bunlarla əlaqədar obyektiv və subyektiv amillərin təhlil edilməsi və yazılması kimi məsələlər həmişə aktualdır, araşdırılması, tarixi həqiqətlərin üzə çıxarılması lazımlı və mühümdür.

**Tədqiqatın xronoloji çərçivəsi**. Təqdim olunan tədqiqatının xronoloji çərçivəsi bir elm sahəsi kimi XX əsrdə formalaşan müasir İran tarixşünaslığını əhatə edir. Məhz XX əsrdə İran tarixşünaslığında Azərbaycanın tarixi, Azərbaycan xalqının və dilinin mənşəyi ilə bağlı iri həcmli əsərlər yaradılmış, İran azərbaycanşünaslığı adlandıra biləcəyimiz elmi istiqamət təşəkkül tapmışdır. Burada Azərbaycanın XX əsr tarixi məsələləri, o cümlədən Cənubi Azərbaycanda milli demokratik hərəkatlar, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Azərbaycan SSR ilə İran arasındakı qarşılıqlı münasibətlərdə Azərbaycanın yeri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Naxçıvanın tarixi ilə bağlı məsələlərin İran tarixşünaslığında tədqiqi öz əksini tapır.

**Mövzunun öyrənilmə səviyyəsi.** İran tarixşünaslığında Azərbaycanın siyasi tarxinin öyrənilməsinin əsası XX əsrin 20-ci illərində, bu ölkədə Pəhləvi rejiminin bərqarar olmasından sonra qoyulmuşdur. Əslində elə müasir İran tarixşünaslığı da məhz bu illərdən təşəkkül taparaq inkişaf etməyə başamışdır. Ancaq hələ XX əsrin əvvəllərindən başlayaraq Şimali Azərbaycan mətbuatında İranda Azərbaycan türklərinin həyatından bəhs edən yazılar işıq üzü görməyə başlamışdı. Tam əminliklə söyləmək olar ki, İran ictimai fikrində Azərbaycan, Azərbaycan türkləri ilə bağlı təşəkkül tapmağa başlayan müxtəlif təzahürlü meyllərə ilk reaksiya verən M.Ə.Rəsulzadə olmuşdur. Onun Məşrutə hərəkatı dövründə İrandan yazdığı "İran məktubları" adlı silsilə məqalələri və 1910-cu illərdə yazdığı "İran türkləri" əsəri Cənubi Azərbaycanın ictimai-siyasi həyatını, Məşrutə hərəkatında rolunu öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir.[2] Bu əsərlər bu gün də Cənubi Azərbaycan haqqında mühüm tarixi araşdırma kimi öz dəyərini itirməmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından sonra İran siyasi dairələrinin, mətbuatının, ayrı-ayrı müəlliflərin Azərbaycan tarixi, coğrafiyası, Azərbaycan türklərinin mənşəyi ilə bağlı qərəzli yazılara və bəyənatlara ilk əsaslandırılmış münasibəti də M.Ə.Rəsulzadə bildirmişdir. Onun 1918-1919-cu illlərdə "Azərbaycan" və "İstiqlal" qəzetlərində bu məqsədlə yazdığı məqalələrində İran müəlliflərinin qərəzli iddialarına tutarlı cavablar verilmişdir.[3]

28 aprel 1920-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, təqribən XX əsrin 40-cı illərinin ortalarına qədər İran tarixşünaslığının tənqidinə həsr edilmiş əsərlərə daha çox rast gəlinmir. Bunun əsas səbəblərindən biri, zənnimizcə, Sovet tarixşünaslarının qarşısında əsas vəzifə kimi mühacir siyasi xadimlərin fəaliyyətinin, onların əsərlərinin "antisovet mahiyyətinin" ifşa edilməsinin qoyulması idi. Bu baxımdan Azərbaycan da istisna təşkil etmirdi. Hələ 1920-ci illərdə SSRİ-də Cənubi

---

[2] Rəsulzadə M.Ə. Əsərləri. I cild 1903-1909, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, s.119-120; Rəsulzadə M.Ə. Əsərləri. II cild. 1909-1914, Bakı: Şirvannəşr, 2001, s.108-137.

[3] Rəsulzadə M.Ə.Azərbaycan paytaxtı, "İstiqlal"məcmuəsi, 1919, 28 may, №1; Rəsulzadə M.Ə. Əsərləri. V cild, Bakı: Qanun nəşriyyatı, 2014, s. 214-232, 280-281, 296, 298-299, 307-308, 312-323, 388-395, 456-457; Rəsulzadə M.Ə. İran və biz, "Azərbaycan", 1919, 8 nisan, № 152; "İstiqlal" məcmuəsi, 1919, 28 may, №1.

Azərbaycanda baş verən inqilabi hərəkata dair ilk məqalələr çıxmağa başlayırdı.[4]

II Dünya müharibəsi illərində Azərbaycan mətbuatında Cənubi Azərbaycanla bağlı vaxtaşırı məlumatlar və məqalələr dərc edilməyə başlayır. Xüsusən, Seyid Cəfər Pişəvərinin başçılığı ilə demokratik hərəkatın qələbəsi Şimali Azərbaycanda cənubda yaşayan həmvətənlərin tarixinə, mədəniyyətinə, siyasi və iqtisadi vəziyyətinə marağın artmasına səbəb oldu. Lakin, bu maraq ilk vaxtlar yalnız müxtəlif qəzet səhifələrində çıxan məqalələrlə məhdudlaşırdı. 1940-cı illərdən başlayaraq Şimali Azərbaycanda Cənubi Azərbaycanın tarixi və müasir vəziyyəti haqqında ilk kiçik həcmli əsərlər yazılmağa başlandı ki, bu əsərlərin müəllifləri İranda Azərbaycanın tarixinin saxtalaşdırılması ilə bağlı öz tənqidi fikirlərini də bildirirdilər. Bu sırada ilk növbədə Azərbaycan yazıçısı Mirzə İbrahimovun Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında məqaləsini[5] və jurnalist Qulam Məmmədlinin Şeyx Məhəmməd Xiyabani haqqında kitabını[6] qeyd etmək lazımdır. Bu dövrdən başlayaraq SSRİ-də və Azərbaycan SSR-də Cənubi Azərbaycanın müasir tarixinə, ilk növbədə milli demokratik hərəkatlara həsr edilmiş əsərlər[7] nəşr edilməyə başlayır ki, bu sırada birinci növbədə Şövkət Tağıyevanın kitabını[8] göstərmək lazımdır. Ş.Tağıyeva öz əsərində mühüm mənbələr kimi dövrün İran mətbuatı ilə yanaşı, İran tarixçilərinin əsərlərindən də istifadə etmiş, onlara öz tənqidi münasibətini bildirmişdir. Həmin dövrdə Məşrutə inqilabının 50 illiyi ilə əlaqədar SSRİ-

---

[4] Вишнеградова А. Революционное движение в Иранском Азербайджане // «Новый мир», 1922, № 2; Ильинский Г. «Шейх Мухаммед Хиябани// Революционный Восток», № 6 ( 28), 1934.

[5] İbrahimov M. Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında //"İnqilab və mədəniyyət" jurnalı. Bakı: 1947, №4.

[6] Məmmədli Q. Xiyabani. Bakı: Azərnəşr, 1949.

[7] Иванова М.Н. Национально-освободительное движение в Иранском Азербайджане в 1918-1920 гг..//Краткие сообщения Института Востоковедения АН СССР, Т.XIV, М., 1955; Алиев С.М. Керим Тахерзаде Бехзад. Азербайджанское восстание во время конституционной революции Ирана// Советское востоковедение, 1958, №1, с.146-149; Алиев С.М. Неизвестный документ об иранской социал-демократической партии (эджтимаюн-уамиюн)// Народы Азии и Африки, 1965, №2, с.133-139; Иванов М.С. Иранская революция 1905-1911 гг., М.: 1957.

[8] Тагиева Ш.А. Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг. Баку: Изд-во АН Азербайджанской ССР, 1956.

də nəşr olunan bir sıra elmi məqalə və kitablarda Azərbaycanın Məşrutə hərəkatında yeri haqqında maraqlı məqamlara və faktlara rast gəlmək olar. XX əsrin 70-ci illərində Şimali Azərbaycanda İran tarixşünaslarının Azərbaycan tarixinin, mədəniyyətinin, dilinin saxtalaşdırılmasına qarşı tədqiqatlarına dair ayrıca əsərlər meydana çıxmağa başladı. Bu istiqamətdə ilk işlərdən biri Abdullah Fazilinin 1970-ci ildə nəşr etdirdiyi kitab[9] oldu. Bu əsərdə İran tarixşünaslığında Azərbaycanın qədim tarixinin saxtalaşdırılması ilə bağlı məsələlərə ötəri toxunulsa da, müəllifin növbəti əsərində[10] Azərbaycanın qədim və ilk orta əsrlər tarixi haqqında İran tarixşünaslığında mövcud olan bir sıra iddia və yalanlar ifşa edildi.

1978-ci ildə "Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı" adlı məcmuə[11] nəşr edilib yayıldı. Bu məcmuənin təxminən yarısını təşkil edən on məqalədə İran tarixçiləri tərəfindən Azərbaycanın tarixinin, coğrafiyasının, Azərbaycan xalqının mənşəyinin, dilinin təhrif edilməsi kəskin tənqid edilmişdir. Məcmuənin giriş hissəsində qeyd edildiyi kimi, Azərbaycan tarixi və mədəniyyətinin əsrlər boyu İran tarixi və mədəniyyəti ilə bağlı olması məlum həqiqət olsa da, bu bağlılıq heç də birinin digərinin içərisində "həll" edilməsi demək deyildir. Qeyd olunurdu ki, bir sıra İran tarixçiləri arasında Azərbaycan tarixini, Azərbaycan xalqının dilini və mədəniyyətini İran tarixi və mədəniyyəti içərisində əritmək meylləri və səyləri gözə çarpır. Belə düzgün olmayan, tarixi saxtalaşdıran fikir və iddialara qarşı haqlı olaraq cavab vermək Azərbaycan alimlərinin vəzifəsi və borcudur. Azərbaycan alimlərindən Ş.Tağıyevanın, O. Əfəndiyevin, S.Onullahinin, T.Musəvinin, M.Azərlinin, V.Piriyevin, H.Dəlilinin, B.Bağırovun, M.Əliyevin, A.Fazilinin məcmuədə yer almış məqalələrində[12]

---

[9] Fazili A.H. Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında, Bakı: 1970.

[10] Fazili A.H. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında, Bakı: 1984.

[11] Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı: Elm, 1978.

[12] Bax: Tağıyeva Ş. Müasir İran burjua tarixşünaslığında Azərbaycan xalqının etnik birliyinin inkar edilməsi haqqında / Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s. 114-124; Эфендиев О. К освещению некоторых вопросов истории сефевидов в современной иранской историографии /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, c.125-140; Onullahi S.M. İran burjua alimlərinin əsərlərində Azərbaycan dili tarixinin saxtalaşdırılması /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s. 141-158; Musəvi T.M. Cəmaləddin Fəqihin "Aturpatakan və nehzəte ədəbi əsəri haqqında

zəngin tarixi qaynaqlara, o cümlədən farsdilli mənbələrə əsaslanaraq İran tarixşünaslığının Azərbaycan tarixinin müstəqilliyini danmaq, Azərbaycan xalğının mənşəyini təhrif etmək, Azərbaycan dilinin müstəqilliyi və əhəmiyyətini heçə endirmək, Azərbaycan mədəniyyətinin varlığını və zənginliyini görməzlikdən gəlmək cəhdlərinə tutarlı cavab verilmişdir. "Sovet Azərbaycanı. Miflər və həqiqət" kitabında[13] Azərbaycan xalqının mənşəyi və dili ilə bağlı İran tarixşünaslığının qeyri-elmi müddəaları ümumi şəkildə tənqid edilmişdir.

"Cənubi Azərbaycan tarixi məsələləri" adlı topluda[14] C.Vəkilovun, M.Çeşmazərin, S.Bayramzadənin, N.Nəsibzadənin, E.Babayevin, Ş.Tağıyevanın, V.Mustafayevin məqalələrində 1920-1930-cu illərdə Azərbaycan SSR-lə Cənubi Azərbaycanın teatr əlaqələri, Azərbaycan Demokratik Partiyasının və Milli hökumətin yaradılmasında S.C.Pişəvərinin rolu, XX əsrin 50-70-ci illərində Cənubi Azərbaycanda maarif və mədəniyyətin vəziyyəti, 1960-1970-ci illərdə Cənubi Azərbaycanın sosial-iqtisadi inkişafının bəzi məsələləri, 1978-1979-cu illər İran inqilabında Cənubi Azərbaycanın iştirakı və inqilabdan sonra azərbaycanlıların mlli hüquqlar uğrunda mübarizəsi, onlarda milli şüurun inkişafı məsələləri araşdırılır, İranın şovinist əhval-ruhiyyəli tarixçilərinin və ideoloqlarının yanlış fikirləri tənqid edilir. Müəlliflərin məqalələrində İranda nəşr edilən müxtəlif mətbu or-

---

/Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.159-167; Azərli M.İ. Azərbaycan dili haqqında ərəbdilli mənbələrdə verilən məlumatların bəzi İran alimləri tərəfindən saxtalaşdırılması / Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı s.167-176; Piriyev V. Azərbaycanın XIII-XIV əsrlər tarixinin İran burjua tarixşünaslığında təhrifinə dair / Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.177-186; Dəlili H.Ə. XVIII əsr Azərbaycan tarixi haqqında bəzi müsir İran tarixçilərinin qeyri-elmi münasibətlərinə dair /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.187-193; Bağırov B. Azərbaycan tarixi və mədəniyyətinin saxtalaşdırılmasının ideya mənbələri haqqında /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.194-204; Əliyev M.M. Bəzi İran mətbuat orqanları səhifələrində Azərbaycan xalqı və onun mənşəyi məsələləri / Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.205-211; Fazili A.H. Azərbaycan tarixinin bəzi problemlərinin İran burjua tarixçiləri tərəfindən saxtalaşdırılmasına dair /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, s.212-218.

[13] Советский Азербайджан: мифы и действительность. Баку: Элм, 1987.

[14] Cənubi Azərbaycan tarixi məsələləri, Bakı: Elm, 1989.

qanlara və fars dilindəki müəyyən ədəbiyyatlara da istinad edilmişdir. Ə.Həbibovun kitabında[15] və R.Seyidovun məqaləsində[16] Cənubi Azərbaycanda siyasi vəziyyət və milli demokratik hərəkatlar təhlil edilmişdir.

Bu illərdə Azərbaycan SSR-də Cənubi Azərbaycan tarixi ilə bağlı yazılmış əsərlərin və dissertasiyaların başlıca mövzusu əsasən "21 Azər" hərəkatı idi. "21 Azər" hərəkatı haqqında Şimali Azərbaycanda yazılmış kitablarda,[17] müdafiə edilmiş dissertasiyalarda[18] (bu əsərlərin müəlliflərinin bir çoxu hərəkatın bilavasitə iştirakçıları idilər – E.M.) fars şovinistlərinin Azərbaycan milli hərəkatı haqqında böhtanlarına cavab verilmişdir. Bu əsərlərdə sovet dövrünün tələblərindən irəli gələn bir sıra məsələlər, o cümlədən 1945-ci ilin dekabrında Təbrizdə Milli hökumətin yaranmasına və bir il sonra süqutuna gətirib çıxarmış xarici şərtlər, birinci növbədə SSRİ

---

[15] Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı, 1914-1918-ci illər. Bakı: Azərnəşr, 1988.

[16] Сеидов Р. А. О национальном формировании азербайджанцев в Иране. / Вопросы национально-освободительного движения на Ближнем и Среднем Востоке. Баку: 1985, с. 36-89.

[17] Çeşmazər M.M. Azərbaycan Demokrat partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-1946-cı illər). Bakı: 1986; Dəvəlli M. Cənubi Azərbaycanda Milli Hökümətin təşkili və fəaliyyəti. Bakı: 1967; Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. 1988; Həsənov N. Oyanmış Təbriz və Səttərxan, Bakı: 1986; İbrahimov T.A. (Şahin) İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması. Bakı: 1967; Pişəvəri S.C. Xatirələr. Azərbaycan Demokrat Firqəsinin nəşri. Bakı: 2005; Pişəvəri M.C. Seçilmiş əsərləri, Bakı: 1984; Vəkilov C.M. Azərbaycan Respublikası və İran. 40-cı illər. Bakı: Elm, 1991; Ибрагимов М.А. О демократическом движении Южном Азербайджане в 1945–1946 гг. Баку: 1948; Ибрагимов М.А. Правда об Иранском Азербайджане. Баку: 1949.

[18] Abdullayev M. R. (Vilayi) İran Azərbaycanında milli-azadlıq hərəkatında mətbuatın rolu (1941-1946), Tarix elm .nam. dis. Bakı: 1973; Аминзаде А. Борьба народной партии Ирана и Азербайджанской демократической партии за национальную независимость на современном этапе. Автореф. дисс.. канд. ист. наук. Баку: 1957; Гасанов Г.А. Революционное движение в Табризе в 1905-1911 гг. Автор. дисс. докт. ист. Наук. Баку: 1975; Девелли-Маммад А. Формирование и деятельность национального правительства в Южном Азербайджане (1945-1946 гг.). Автореф. дис. канд. ист. наук. Баку: 1967; Мамедов К. Создание Южно-Азербайджанского народно-демократического государства (1945-1946 гг.). Автореф. дис.. канд. ист. наук. М.: 1950; Мирзазаде С.К. Национальный меджлис Иранского Азербайджана и его законодательная деятельность. Автореф. дис. канд. юрид. наук. Баку: 1971.

hökumətinin siyasəti öz əksini tapmasa da, İranda Pəhləvi rejiminin azərbaycanlılara və digər qeyri-farslara qarşı ayrı-seçkilik münasibəti, onların zorla farslaşdırılması siyasəti, 1945-1946-cı illərdə mövcud olmuş Azərbaycan Milli hökumətinin həyata keçirdiyi siyasi, iqtisadi və mədəni tədbirlər, bu hərəkatın cənublu azərbaycanlıların milli şüurunun, siyasi mütəşəkkilliyinin inkişafıda rolu geniş işıqlandırılmışdır.

1960-1980-ci illərdə Azərbaycan tarixçilərindən Z.Bünyadovun, Y.Mahmudovun, H.Əlibəylinin, S.Qasımovanın, O.Əfəndiyevin, İ.Əliyevin, N.Vəlixanlının, F.Əliyevin və başqa müəlliflərin monoqrafiyalarında[19] Azərbaycan tarixinə dair paniranist baxışlar konkret fakrlarla tənqid edilmişdir.

Sovet dövründə SSRİ-də İranın siyasi və iqtisadi vəziyyətinə, xarici siyasətinə həsr edilmiş əsərlərdə Cənubi Azərbaycanla bağlı müəyyən məsələlər öz əksini tapmışdır.[20] Həmin əsərlərin bəzilərində SSRİ-İran

---

[19] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, Bakı: 1989; Касумова С.Ю. Азербайджан в III-VII вв. Баку: 1993; Историческая географияАзербайджана. Баку: 1987; Эфендиев О. Азербайджанское государства Сефевидов, Баку: Элм, 1981; Алиев И.О некоторых вопросах этнической истории азербайджанского народа. Баку: 2002; Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку: Элм, 1989; Yenə onun: История Мидии. Баку: Изд-во АН АзССР, 1960; Yenə onun: Очерк истории Атропатены. Баку: Азернешр, 1989; Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: 1974; Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı: 1989; Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами /II половина XV - начало XVII века, Баку: БГУ, 1991.

[20] Абдуразаков Б. Происки английского и американского империализма в Иране (1941-1947). Ташкент: 1959; Агаев С.Л. Иран: внешняя политика и проблемы независимости 1925-1941 гг. М.: 1971; Yenə onun: Иран в период политического кризиса 1925-1929 гг. Вопросы внешней политики. М.: Наука, 1970; Yenə onun: Иран: внешняя политика и проблемы независимости (1925-1941 гг.). М.: Наука, 1971; Yenə onun: Иран: рождение республики. М.: Политиздат, 1984; Yenə onun: Нефть и общественно-политическое развитие Ирана в XX в. М.: Наука, 1985; Алиев С.М. Иранская революция, 1978-1979: причины и уроки. М.: Наука, 1989; Орлов Е.А. Внешняя политика Ирана после второй мировой войны. М.: 1975; Иванов М.С. Новейшая история Ирана. М.: Мысль, 1965;Yenə onun: Иран в 60-70-х годах XX века. М.: 1977; Меликов О.С. Установление диктатуры Реза-шаха в Иране. М.: 1961; Национально-освободительное движение в Иране. М.: Изд-во ВЛ., 1961; Резников А. Б. Иран: падение шахского режима. М.: Политиздат, 1983.

əlaqələrində Azərbaycan SSR-nin iştirakına dair, maraqlı məlumatlar vardır.

Müstəqillik illərində Azərbaycan Respublikasında erməni və fars şovinist-millətci dairələrinin Azərbaycan türklərinin tarixinin saxtalaşdırılmasına qarşı bir çox maraqlı əsərlər ortaya qoyulmuşdur. Onların arasında Y.Mahmudovun,[21] İ.M.Hacıyevin,[22] T.Köçərlinin,[23] Ə.Sumbatzadənin,[24] Q.Qeybullayevin[25] əsərlərini qeyd etmək lazımdır.

Gəncəli Səbahinin memuar səciyyəli əsərində[26] mövzu ilə bağlı maraqlı məqamlara rast gəlmək mümkündür. Kitaba yazdığı ön sözdə tanınmış ədib Əziz Möhsini vurğulayır ki, 1914-1978-ci illərdə həm İranda, həm də Arazın o tayında (indiki Azərbaycan Respublikası ərazisi nəzərdə tutulur – E.M.) baş verən hadisələrin təsvir edildiyi bu əsər yalnız G.Səbahinin və ailəsinin sərgüzəşti deyil, eyni zamanda zavallı Azərbaycan xalqının qara taleyini, bütün İran xalqlarının ağır həyat şəraitini və habelə, o tayda olan ədalətsizliyi, ziddiyyətləri, çatışmazlıqları bariz surətdə göstərir.

Ş.Tağıyevanın, Ə.Rəhimlinin (Bije), S.Bayramzadənin, V.Mustafayevin, Ə.Tahirzadənin, E.Mədətlinin, N.Nəsibzadənin, S.Əmirovun və başqa müəlliflərin Cənubi Azərbaycanın siyasi, iqtisadi tarixi, Azərbaycan türklərinin demokratik hərəkatına həsr edilmiş əsərlərində[27] İran tarixşünaslığının antitürk və antiazərbayan istiqaməti elmi cəhətdən tənqid edilir.

---

**21** Mahmudov YM. Azərbaycan diplomatiyası. Bakэ: Təhsil, 2006; Yenə onun**:** Azərbaycan tarixi. İntibah dövrü: IX əsrin ikinci yarэsэ-XIII əsrin əvvəlləri, Bakэ: Altay dьnyasэ, 1996; Yenə onun: Azərbaycanlılar**:** etnik-siyasi tarixə ьmumi baxэю. Bakэ: Aspoliqraf, 2008; Yenə onun: Qarabağ: real tarix: Faktlar. Sənədlər, Bakı: Təhsil, 2005.- 380 s.

22 Hacıyev İ.M. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, 2018.

23 Köçərli T. Qarabağ. Yalan və həqiqət, Bakı: "Əbilov, Zeynalov və oğulları", 1998; Yenə onun: Erməni saxtakarlığı. Tarixi arayış. Bakı: 2001.

24 Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку: Элм, 1990.

25 Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı: Azərnəşr, 1994; Yenə onun: Qarabağ: Etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990; Yenə onun: Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992.

26 Gəncəli Səbahi. Ötən günlərim. (ərəb əlifbası ilə Azərbaycan dilində), Tehran: Enteşarat-e "Donya", 1372.

27 Məmmədli Q. Ömür dəftərindən səhifələr. Bakı: Təhsil, 2016; Yenisey G. İranda etnosiyasi hərəkatlar (1922-2004). Bakı: Qanun, 2009; Рагимли А. Национально-демократические движения в Южном Азербайджане. Баку: 2003; Байрамзаде

Müasir Azərbaycan iranşünaslarının diqqət yetirdikləri məsələlərdən biri də, İran tarixçilərinin "21 Azər" hərəkatının mahiyyətini saxtalaşdırmaq, ümumiyyətlə Cənubi Azərbaycanda hər hansı milli və demokratik hərəkatın olmadığını sübut etmək cəhdlərinin ifşasıdır. Bu məqsədlə son illərdə həm müxtəlif müəlliflər tərəfindən ayrı-ayrı əsərlər[28] yazılmış, hərəkat iştirakçılarının xatirələri və kitabları[29] yenidən çap edilmiş, həm də 2015-ci ildə hərəkatın 70 illiyinə həsr edilmiş konfransın materialları[30] işıq üzü görmüşdür.

---

С. Южный Азербайджан: от «21 азер»а до «белой революции», Баку: «Тарагги», 2016; Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı – 90. Bakı: "Bakı çap evi, 2011; Güney Azərbaycan. Tarix və müasirlik. Bakı: 2014; Nəsibzadə N. İranda Azərbaycan məsələsi (XX əsrin 60-70-ci illəri). Bakı: "Ay-Ulduz", 1997; Nəsibli N. Güneyli-Quzeyli məsələlərimiz, Bakı: "Aypara 3", 2013; Azadlıq uğrunda mübarizə tariximizdən. Bakı: 2011; Məmmədli P. Cənubi Azərbaycan mətbuatı tarixi. Bakı: Elm, 2009.

[28] Bayramzadə S. Cənubi Azərbaycan tarixində ağ ləkələr// Azərbaycan Demokrat Partiyasının yaranması, fəaliyyəti və süqutu. // Azərbaycan tarixi problemləri üzrə məruzələr məcmuəsi. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti mətbəəsi, 1992; Rəhimli Ə. Güney Azərbaycanda milli-demokratik hərəkat. Bakı: "MEQA" nəşriyyatı, 2003; Rəhimli (Bije) Ə. Mübarizə burulğanında keçən ömür. Seyid Cəfər Pişəvəri. Bakı: Nurlar, 2009; Rəhimli Ə, Bayramzadə S. Güney və Quzey Azərbaycan: Ensiklopedik təqvim (Tarixi olaylar, siyasi və ədəbi şəxsiyyətlər), Bakı: 2014; Рагимли А. Национально-демократические движения в Южном Азербайджане. Баку: 2003.

[29] Muciri C. İkinci Dünya müharibəsi və milli azadlıq hərəkatı dövründə ədəbiyyat (1941-1953) /XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar – 1900-1985-ci illər". Bakı: Elm, 1990; Salamulla C. O günün həsrəti ilə. Bakı: 2003; Kəskin A. Güney Azərbaycanda milli hərəkatın tarixi təməlləri // "Bakı-Təbriz" dərgisi, №3, mart, 2006; Fərzanə M. Seyid Cəfər Pişəvərinin müəmmalı ölümü - «21 Azər tariximizdən bir yarpaq», ərəb qrafikası ilə, s. 2 (Toplunun yeri və ili göslərilmir).

[30] "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları, Bakı: Araz, 2015; Bayramzadə S. Azərbaycan Demokrat Firqəsinin yaranması və fəaliyyəti barədə bəzi mülahizələr /"21 Azər-70" mövzusunda Elmi Konfransın materialları, Bakı: Araz, 2015, s.151-171; Əmir Haşimi. Azərbaycan Milli Hökumətinin yarandığı zəmin və gördüyü işlər (1945-1946-cı illər) /"21 Azər-70" mövzusunda Elmi Konfransın materialları, Bakı: Araz, 2015, s.177-192; Mirzəyeva C. Pəhləvilər dövründə Güney Azərbaycanda həyata keçirilən inzibati-ərazi bölgüsü və yer adlarının dəyişdirilməsi siyasəti. / "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı:

C.Həsənlinin müxtəlif ölkələrin arxiv sənədləri əsasında yazılmış monoqrafiyalarında[31] həm 1918-1920-ci illərdə, həm də XX əsrin 40-cı illərində İran-Azərbaycan münasibətlərinin müxtəlif aspektləri, İranın Azərbaycan dövlətçiliyinə münasibəti, Cənubi Azərbaycanda demokratik hərəkat, böyük dövlətlərin İran siyasəti və s. məsələlər geniş araşdırılmışdır.

Müasir dövrdə İranın Cənubi Qafqaz regionu və Azərbaycanla bağlı geosiyasətinin mahiyyətini, Azərbaycan-İran münasibətlərini öyrənmək baxımından M.Qasımlının[32] Ə.Həsənovun[33] V.Mustafayevin və başqa müəlliflərin[34] əsərləri mühüm əhəmiyyət kəsb edir. Dissertasiya hazırlanarkən müəllif Azərbaycan Respublikasında İran-Azərbaycan əlaqələrinə, İranın regional siyasətinin təhlilinə həsr edilmiş dissertasiyaları da diqqətdən kənarda qoymamışdır.[35]

---

Araz, 2015, s.223-229; Mirzəzadə S.Azərbaycan Milli Hökuməti dövründə əncümənlər. / "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı: Araz, 2015, s.172-176; Rəhimli (Bije) Ə. 21 Azər XX əsr Güney Azərbaycandakı xalq hərəkatının zirvəsidir. / "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı: Araz, 2015, s. 99-106; Səfəri H. Güney Azərbaycanda 1946-cı il soyqırımı. /"21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı: "Araz" nəşriyyatı, 2015, s.208-222.

[31] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: "GARISMA" MMC, 2009; Yenə onun: Güney Azərbaycan Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı: "Diplomat", 1998; Yenə onun: Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması, 1941-1946. Bakı: Azərbaycan nəşriyyatı, 2001; Yenə onun: İkinci Dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945), Baki: 2015; Yenə onun: Soyuq müharibənin başlandığı yer. Güney Azərbaycan. 1945-1946. Bakı: 1999.

[32] Qasımlı M. Azərbaycanın xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. Bakı: "Mütərcim", 2015; Yenə onun: Qasımov M. Birinci dünya müharıbəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə, I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). Bakı: Qanun, 2000.

[33] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: "Azərbaycan" nəşriyyatı, 2005; Yenə onun: Azərbaycanın geosiyasəti, "Zərdabi" LTD MMC, 2015.

[34] Mustafayev V. Cənubi Azərbaycan. Milli Şüur (20-ci əsrin birinci yarısında), Bakı: 1998; Talıblı S. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər)". Bakı: Elm və təhsil, 2016.

[35] Məmmədova G. İran-Azərbaycan mədəni əlaqələri (199-1995), Tar. elm. nam... dis. avtoref. Bakı: 1999, Hüseyn F. İran-Azərbaycan siyasi münasibətləri (1991-1997-ci illər): Tar. elm. nam. dis. Avtoref. Bakı: 2005; İftixari A.H. İran İslam

İran tarixşünaslığının Azərbaycan türklərinin tarixi, dili, ərazisi ilə bağlı əsassız iddialarının elmi əsaslarla ifşa edilməsində Cənubi Azərbaycanın milli ruhlu ziyalılarının fəaliyyəti və yazdıqları əsərlər mühüm əhəmiyyətə malikdir. Xüsusən, Cavad Heyətin,[36] Əli Azərinin,[37] Məhəmməd Tağı Zehtabinin,[38] Rəhim Rəisniyanın,[39] Səməd Sərdarniyanın,[40] Hüseyn Əlizadənin (Barış Mərəndli),[41] Zöhrə Vəfalının,[42] Teymur Mirhəşiminin[43] kitab və məqalələrində fars müəlliflərinin Azərbaycan türklərinin tarixinə və dilinə şovinist baxışları tutarlı dəlillərlə alt-üst edilir.

İrandan dünyanın müxtəlif ölkələrinə mühacirət etmiş azərbaycanlıların ictimai birlik və təşkilatlarının təsis etdiyi onlarla qəzet və jurnallarda Cənubi Azərbaycan  tədqiqatçılarının tarix, dil, mədəniyyət, folklor, milli məsələ və s. mövzular daha ciddi və mübariz şəkildə qoyulmuşdur. Bu proses xüsusilə də 1979-cu ildən sonrakı mühacirətin fəaliyyətində daha da fəallaşmışdır. Almaniyada "Ana dili", "Azərbaycanın səsi", "Azər" və başqaları, İsveçdə nəşr edilən və yüksək elmi səviyyəsi ilə seçilən "Tribun", ABŞ-da "Azərbaycan", "Beynəlxalq Azərbaycan", Kanadada "Qurtuluş", Türkiyədə "Xəzər", "Azərbaycan türkləri", İspaniyada "Dədə Qor-

---

Respublikasının Qafqaz siyasəti (1991-2005-ci illər): Tar. elm. fəl.dok. dis. Avtoref. Bakı: 2010; Ruintən K. Qafqaz regionu İranın kütləvi informasiya vasitələrində. Siy. elm. fəl. dok. dis. avtorefer. Bakı: 2014; Əliyev A. İran İslam Respublikasının digər xəzəryanı ölkələrlə əməkdaşlığı. Siy. elm. fəl. dok. dis. avtorefer. Bakı: 2010; Hacıyeva Y. İran İslam inqilabindan sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005). Tar. elm. fəl. dok. dis. Avtoref. Bakı: 2014.

[36] Cavad Heyət. Azəri türkcəsinin tarixinə bir baxış. //«Varlıq» dərgisi, 1979, aprel, 1 sayı; Yenə onun: Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: 1998; Yenə onun: Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı: 1993; Yenə onun: Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. Bakı: Elm və təhsil, 2011.

[37] Azəri Əli. Qiyam-e Şeyx Məhəmməd Xiyabani dər Təbriz, çap-e dovvom ba təcdid nəzər-e kamel, Tehran: Bonqah-e mətbuati-ye Səfi Əlişah, 1346.

[38] Zehtabi M.T. İran türklərinin qədim tarixi, I cild. Təbriz: 1377.

[39] Rəisniya R. Azərbaycan dər seyr-e tarix-e İran. Əz ağaz ta eslam, celde əvvəl, dovvom, sevvom. Təbriz: Enteşarat-e Məbna, çape sevvom,1379.

[40] Sərdariniya S. İrəvan yek vilayəte-musəlmanneşin bud. Tehran: Nəşriyyeye Zufa, 1380; Yenə onun: Məşahirə Azərbaycan , II cild, Təbriz: 1364.

[41] Əlizadə H. Hökumət-e Melli-ye Azərbaijan-Mururi bər roydadhayi salhayi 1325. Azərbaycan və 21 Azər qətliamı, elektronik nəşr, noyabr 2014.

[42] Vəfalı Z. Namavarane Azərbaycan. Təbriz: 1378.

[43] Pirhaşimi T. Arran vilayəti əst əz Azərbaycan. //«Varlıq» dərgisi, 1985, № 3-4.

qud", İraqda "Yurd", Polşada "Xudafərin" və digər ölkələrdə onlarla bu kimi qəzet və jurnallarda bəzi İran tarixçilərindən fərqli olaraq Cənubi və Şimali Azərbaycan tarixinə dair çox dəyərli elmi məqalələr dərc edilərək yayılmışdır.[44]

Təqdim edilən tədqiqatda XX əsrdə İranın siyasi vəziyyəti, Cənubi Azərbaycan məsələsi haqqında müasir Rusiya tarixçilərinin bir sıra əsərləri[45] dövriyəyə gətirilmişdir. L.Kulaqinanın və Y.Dunayevanın kitabında[46] arxiv materialları və sənədlər əsasında Rusiya imperiyası və sonralar SSRİ ilə İran arasında sərhədlərin təşəkkül tapması tarixi nəzərdən keçirilir. Burada Azərbaycanın İranla ümumi sərhədləri məsələsinə də toxunulur.

Müasir Rusiya müəllifləri S.Əliyevin[47] və başqalarının əsərlərində,[48] məqalələrində,[49] araşdırılan mövzu ilə bağlı maraqlı məqamlara da müraciət edilmişdir.

---

44 Hacıyeva Y. İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı: Adiloğlu, 2017.

45 Алиев С. Иранская революция, 1978-1979: причины и уроки. М.: Наука, 1989; Арабаджян З.А. Иран: противостояние империям (1918-1941). М.: Институт Востоковедения РАН, 1996; Куртов А.А. Армяно-иранские отношения //Армения: проблемы независимого развития. М.: РИСИ, 1998; Малеки А. Иран и Туран. К вопросу об отношениях Ирана с государствами Центральной Азии и Закавказья /«Центральная Азия и Кавказ», 2001, №5; Орлов Е. Внешняя политика Ирана после второй мировой войны. М. Наука, 1975; Орлов Е. Россия и Иран в XX веке (основные этапы взаимоотношений) // Иран: ислам и власть. М.: 2002; Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР, М.: 1946.

46 Кулагина Л., Дунаева Е. Россия и Иран: история формирования границ. 2-е изд., доп. М.: Гуманитарий, 2007.

47 Алиев С. История Ирана. XX век. М.: Институт Востоковедения РАН, «Kraft+», 2004.

48 Годс М.Р. Иран в XX веке. Политическая история / пер. с англ. М.: Наука, 1994; Лукоянов, А.К. Исламская революция. Иран опыт первый 1979-2009. М.: Прогресс, 2010; Малышева Д.Б. Турция и Иран в борьбе за влияние в Закавказье: поиски новой модели общения и развития в изменившемся мире. М., 1999; Папава В.А. Тайная полиция шаха Мохаммеда Реза Пехлеви - САВАК (1957-1979). М.: Универсал, 2011; Гаджиев К.С. Геополитика Кавказа. М.: Междунар. отношения, 2001.

49 Азербайджан-Иран: пока проблем в отношениях соседей больше, чем решений //Независимый Азербайджан: новые ориентиры. РИСИ. М., 2000, т.2.; Куртов А.А. Армяно-иранские отношения //Армения: проблемы независимо-

XX əsrin II yarısında xarici müəlliflərin əsərlərində 1940-cı illərdə böyük dövlətlərin İranda apardıqları siyasətin mahiyyətini öyrənmək baxımından çox maraqlı faktlar vardır.[50] G.Lençevskinin kitabında[51] (604) Azərbaycan hadisələri xüsusi yer almışdır. Həmin hadisələrin şahidi olmuş və onları müşahidə etmiş Robert Rosso "1946-cı ildə Azərbaycanda mübarizə" adlı məqalə yazmışdır.[52] Mövzunun araşdırılması ilə bağlı müasir qərb analitiklarinin əsərlərinə[53] də müraciət edilmişdir.

İran tarixşünaslığında Azərbaycan türklərinin tarixinin və dilinin saxtalaşdırılması istiqamətində ilk cəhdlər Əhməd Kəsrəvi[54] tərəfindən edilmişdir. Sonralar Məhəmməd Cavad Məşkur,[55] Mehrdad Azəri,[56] Əhməd

---

го развития. М., 1998; Сажин В.И. Квопросу об Ирано-Азербайджанских отношениях //Востоковедный сборник. М.: 2004; Малышева Д.Б. Иран и проблемы региональной безопасности Закавказья /Ближний Восток и современность. Сборник статей (выпуск девятый). М.: 2000, с.351-359;

[50] Brenda Shaffer. Borders and Brethen. İran and Challenge of Azerbaijani İdentity. Cambridge, The MİT Press, 2002; Chaqueri C. The Russo-Caucasian Origins of the Iranian Left Social Democracy in Modern Iran. Curzon. 2001; Fatemi N.S. Diplomatic history of Persia.1917-1923. Anglo-Russin power politics in Iran. New-York: Russell F.Moore, 1952; Fatemi S.F. The USSR in Iran. New-York-London: 1980; Hamzavi A.H. Persia and the Powers. An Account of Diplomatic Relations, 1941-1946. London, New-York, Melbourne, Sydney: 1946; Kuross A. Samii. «Truman against Stalin in Iran: A Tab of Three Messages». Middle Eastern Studies, January, 1987, № 1, Vol. 23; Sheehan K. M. Iran: The Impact of United States Interests and Policies. 1941-1954, Brooklyn, 1968; Wagnen Van Richard. The Iranian Case 1946. New York: Carnegie Endowment for Peace, 1952; Yodfat A.Y. The Soviet Union and Revolutionary Iran. New York: 1984.

[51] Lenczowski George. Russia and the West in Iran, 1918-1948. A Study in Big Power Rivalry. Cornell University Press, Ithaca, New-York: 1949.

[52] Rossow R. The Battle of Azerbaijan. 1946. //The Middle East Journal, vol. 10, no. 1, winter 1956.

[53] Cornell S.E. Small Nations and Great Powers. A. Study of Ethnopolitical Conflict in the Caucasus // Curzon Press, 2001; Shaffer B. Borders and Brethren: Iran and the Challenge of Azerbaijani Identity. Cambridge: MIT Press, 2002.

[54] Kəsrəvi Ə. Azəri ya zəbane bastaniye Azərbaycan, Tehran: 1309; Yenə onun: Tarixe-hicdəhsalaye-Azərbaycan, 1333. Tehran: 1943; Yenə onun: Şəhriyarane-qomnam. Tehran: 1928; Yenə onun: Dər piramun-e tarix.Tehran: Enteşarat-e Ferdovs, nəşr-e sevvom, 1378.

[55] Məşkur M.C. Nəzəri be tarixe Azərbaycan və asare bastani və cəmiyyətşenasan., Tehran: 1349.

Kavyanpur,[57] Cəmaləddin Fəqih,[58] Mənuçehr Mürtəzəvi,[59] Xanləri,[60] Hüseynqulu Katebi,[61] Əbdüləli Karəng,[62] İzədyar,[63] M.Əzizi[64] Ə.Kəsrəvinin nəzəriyyəsini öz əsərlərində davam etdirdilər. Kəsrəviçilik meylləri orta əsrlər dövrünə müraciət etmiş müəlliflərin əsərlərində[65] də özünü göstərirdi.

Sonrakı dövrdə İran tarixşünaslığında antiazərbaycan istiqamətin inkişafında İnayətullah Rza[66] "böyük rol" oynamışdır. Onun əsərlərində Azərbaycan türklərinin tarixi, mədəniyyəti daha çox təhriflərə məruz qalmışdır. Bəhram Əmir Əhmədiyanın[67] və Turəc Atabəyinin[68] son illərdə nəşr edilmiş əsərlərində də Azərbaycan xalqının tarixinə və dilinə dair paniranist baxışların təsiri özünü göstərir.

---

[56] Azəri M. Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran. Tehran: 1361.
[57] Kavyanpur Ə. Tarixe umumiye Azərbaycan, Tehran: 1346; Yenə onun: Tarixe Rzaiyyə, I cild, Tehran: 1348.
[58] Fəqih C. Aturpatakan (Azərbaycan) və nehzəte-ədəbi, Tehran: 1346.
[59] Mürtəzəvi M. Nəqşe Azərbaycan. Təbriz: 1345.
[60] Xanləri. Zəban və mellət, mocəlleye "Soxən", azər və dey 1325, №67.
[61] Katebi H. Azərbaycan və vəhdəte-melliye İran. Təbriz: 1321.
[62] Karəng Ə. Tati və hərzani do ləhcə əz zəban-e bastaniye Azərbaycan. Təbriz: 1332.
[63] İzədyar. Azərbaycan və zəbane azəri. Mocəlleye "Ərməğan", № 68-96.
[64] Əzizi M. Coğrafiyaye nezamiye Azərbaycan. Tehran: 1321.
[65] İqbal Aştyani A. Tarix-e mofəssəl-e İran, be kuşeşe Məhəmməd Dəbirsəyaqi. Tehran: 1320. Tacbəxş Ə. İran dar zaman-e Səfəviyye. Təbriz: 1340; Rəhimzadei-Səfəvi. Şərhi cəng və tarix-e zendegani şah İsmayıl Səfəvi. Tehran: 1341; Şeybani N.M. Təşkil-e şahənşahi Səfəviyye, ehyayi vəhdəti melli. Tehran: 1346; Səbətiyan Z. Əsnad və namehayi tarix-e doureye Səfəviyye. Tehran: 1342; Fəlsəfi N. Zendegani-i şah Abbas-e əvvəl. Celd-e əvvəl, muqəddimat-e səltənət əz vəladət ta padşahi. Tehran: 1334; Fəlsəfi N. Zendeqani-ye Şah Abbase əvvəl, celde dovvom, Tehran: 1334; Fərzane Ə.M. Məbani dəstur-e zəban-e Azərbaycan. Təbriz: Enteşarate Şəms, 1366; Nateğ N. Zəban-e Azərbaycan və vəhdət-e melli-ye İran. Tehran: 1360.
[66] Rza İ. Azərbaycan və Ərran, çape əvvəl. Tehran: 1981; Yenə onun: Azərbaycan və Ərran, çape dovvom, Tehran: 1988; Yenə onun: Azərbaycan-əz kuhəntərin əyyam ta emruz. Təbriz: Enteşarat-e Mərd-e Emruz, 1367.
[67] Əhmədiyan B.Ə. Rəvabet-e İran və Comhuriye Azərbaycan (negah-e azəriha be İran). Tehran: 1384.
[68] Atabəyi T. Azərbaycan dər İrane moaser. Tərcüme-ye Məhəmməd Kərim Eşraqi. Tehran: 1376; Yenə onun: Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi, İngilis dilindən tərcümə N.Mədətli. Bakı: Təhsil, 2002.

İran tarixçilərindən M.Vicueyinin,[69] Ə.Kəsrəvinin[70] K.T.Behzadın,[71] M. Məlikzadənin,[72] M.Müctəhidinin,[73] F.Hüseynin,[74] Ə.Kəmalvəndin,[75] S.H.Tağızadənin,[76] R.Şəfəqin,[77] İ.Əmirxizinin,[78] F.Adəmiyyətin,[79] M.Rzazadənin[80] əsərləri 1905-1911-ci illər Məşrutə inqilabında Cənubi Azərbaycanının əsas rol oynadığını, Azərbaycan türklərinin bu hərəkatın aparıcı qüvvəsi olduğunu təsdiq edir. F.Adəmiyyət İranda milli məşrutiyyət ideolojiyasını geniş işıqlandırmışdır. O, yazır ki, Azərbaycan Cümhuriyyəti Qafqazın müsəlmanlar yaşayan Qarabağ və Naxçıvan məntəqələrini də özünə birləşdirmək istəyirdi.[81] Hacı Məhəmməd Bağırın kitabı[82] Məşrutə inqilabına dair mühüm gündəlikdir.

Məşrutə hərəkatının yatırılması zamanı Cənubi Azərbacanda ermənilərin törətdiyi vəhşiliklər R.Tofiqin əsərində[83] geniş işıqlandırılmışdır. Müəllif yazır ki, Rusiya inqilabından sonra İrandakı rus qüvvələrinin öz vətənlərinə qayıtmaq məsələsi ortaya çıxanda ermənilər aysorlarla bərabər ye-

---

69 M.Vicueyi .Tarix-e enğelab Azərbaycan - bəlvayi Təbriz, Təbriz, 1908.

70 Kəsrəvi Ə. Tarix-e hicdəh sale-ye Azərbaycan ya sərneveşt-e qordan və delİran. celd-e əvvəl və celd-e dovvom.Tehran: Əmir Kəbir, çap-e nohom 2537; Yenə onun: Tarix-e məşrute-ye İran. celd-e əvvəl və celd-e dovvom, çape çahardəhom, Tehran: Əmir Kəbir, 2537; Yenə onun: Tarix-e Məşrute-ye İran, celd-e 1, nəşr-e XIV, Tehran: Əmir Kəbir, 1978.

71 Behzad K.T. Azərbaycan dər enğelab-e məşrutiyyət-e İran. Tehran: 1334.

72 Məlikzadə M. Tarix-e-enğelab-e məşrutiyyət-e İran. Tehran: 1949.

73 Moctəhidi M. Recal-e Azərbaycan dər əsr-e məşrutiyyət. Tehran: 1970.

74 Hüseyn F. Təhəvvulate enğelab - Azərbaycan dər doure-ye məşrutiyyət ya tarix-e Səttarxan sərdari mill, Təbriz, 1945.

75 Kəmalvənd Ə. Baskervill və enğelab-e İran. Tehran: 1957.

76 Tağezade S.H. Moctəmeye bərrəsiha əz tarix-e əvayil-e enğelab və məşruteyi İran. Tehran: 1959.

77 Rezazade Ş. Enğelab-e məşrutiyyət-e İran // "Radio İran", 1960, №48.

78 Əmirxizi İ. Qiyam-e Azərbaycan və Səttarxan. Təbriz: 1960.

79 Adəmiyyət F. Fekr-e demokrasi-ye ectemayi dər nehzət-e məşrute-ye İran. Tehran: Sohan, 1961.

80 Rzazadə R.M. Heydər xan Əmuoğli – Çekide-ye enğelab. Tehran: Enteşarat-e Donya, 1352.

81 Adəmiyyət F. Fekr-e demokrasi-ye ectemayi dər Nehzət-e Məşrute-ye İran, s. 157-158.

82 Bağır H.M. Bəlva-ye Təbriz. Be Kuşes-e Əli Katibi Təbriz: İbn-Sina 1348.

83 Tofiq R. Urmiyə-yaddaşthayi əz salhayi əvvəl cəng-e cahani və bəd əz an. Şiraz: 1382.

nə müsəlman əhaliyə qarşı təcavüzkarlığa başladılar və “Məsihilər komitəsi” Səlmas və Urmiyə ətrafından bütün silahlı erməniləri və aysorları Urmiyəyə hücum edib burada hakimiyyəti ələ almağa çağırdı. Səhərisi gün Urmiyə şəhəri topa tutuldu, şəhərdə qətl-qarət başlandı. Səlmas şəhəri də eyni aqibətə düçar oldu. R.Tofiq yazır ki, yalnız Səlahəddin paşanın komandanlığı ilə Osmanlı qoşunlarının İrana daxil olması Azərbaycan əhalisini bu kütləvi qırğınlardan xilas etdi.[84] Ə.Kəsrəvi “Azərbaycanın 18 illik tarixi, yaxud qorxmaz və igid adamların taleyi” əsərində qeyd edir ki, ruslar əhali ilə amansız davranır, assurilər və ermənilər onların köməyinə bel bağlayaraq hədd-hüdudsuz zülmkarlıq edirdilər.... Qafqazdan qaçan bir dəstə erməni cilolarla (aysor quldur dəstələri – E.M.) əlbir olub quldurluğa qurşanır, onlara müqavimət göstərən adamları dərhal öldürürdülər”.[85]

İran tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinə münasibət, AXC-İran münasibətlərinin öyrənilməsi məqsədilə İ.Ə.Tarəmi Azərbaycaninin[86] məqaləsi, Ə.Kəsrəvinin,[87] İ.Rzanın,[88] M.Azərin[89] kiatabları təhlil edilmişdir. Müasir tarixçilərdən T.Atabəyi və B.Ə.Əhmədiyanın kitablarında[90] da AXC-yə münasibət bildirilmişdir.

Xiyabani hərəkatı haqqında Ə.Kəsrəvinin,[91] Ə.Azərinin,[92] H.Məkkinin[93] kitabları, Z.Qiyaminin,[94] S.Cavidin[95] və M.Hidayətin[96] xatirələri,

---

[84] Tofiq R. Urmiyə-yaddaşthayi əz salhayi əvvəl cəng-e cahani və bəd əz an, s. 57.
[85] Kəsrəvi Ə. Tarixe-hicdəhsalaye-Azərbaycan. Tehran: 1333, s. 710.
[86] Tarəmi-Azərbaycani İ.Ə. Tarix-e qəzavat, “İran” qəzeti, Tehran: 1919, № 454.
[87] Kəsrəvi Ə. Tarix-e hijdahsale-ye Azərbaycan. Tehran: 1353.
[88] Rza İ. Tarixi Arran və Albaniyaye Qafqaz. Tehran: nəşre «İran zəmin», 1360; Yenə onun: Azərbaycan əz kohəntərin əyyam ta emruz. Azərbaycan və Ərran, çape dovvom, Tehran: 1988.
[89] Azər M. Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran. Tehran: 1982.
[90] Atabəyi T. Azərbaycan dər İrane moaser. Tərcüme-ye Məhəmməd Kərim Eşraqi. Tehran: 1376; Əhmədiyan B.Ə. Rəvabet-e İran və Comhuri-ye Azərbaycan (negah-e azəriha be İran). Tehran: 1384.
[91] Kəsrəvi Ə. Qiyam-e Şeyx Məhəmməd Xiyabani. Tehran: Nəşr-e Mərkəz,1376; Yenə onun: Tarix-e hicdəhsale-ye Azərbaycan, cilde əvvəl, nəşre nohom, Tehran: Əmir Kəbir, 1978.
[92]Azəri Ə. Qiyame Şeyx Məhəmməd Xiyabani dər Təbriz. Tehran: 1329; Yenə onun: Qiyam-e Şeyx Məhəmməd Xiyabani dər Təbriz, çap-e dovvom ba təcdid nəzər-e kamel. Tehran: Bonqah-e mətbuati-ye Səfi Əlişah,1346.
[93] Məkki H. Tarix-bistsale-e İran, Tehran: 1946.
[94] Qiyami Z. Şeyx Məhəmməd Xiyabani. Xatirat, Donya, XI, №4.

M.Xiyabani haqqında digər materiallar[97] tədqiqata cəlb edilmişdir. Məsud Behnudun kitabında[98] Ş.M.Xiyabani (s.211-247) və S.C.Pişəvəri (s.449-490) haqqında məlumatlar təhlilə cəlb edilmişdir.

İran tarixşünaslığında XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda milli hərəkatın dəyərələndirildiyi çox sayda ədəbiyyat vardır ki, onlardan əksəriyyəti tədqiqata cəlb edilmişdir. Bunların arasında F.Əzimi, X.Bəyani, R.Məhəmmədi, H. Əbutorabiyan, B.Səfəri, F.Şahrox, H.Mollazadə, L.Ərdəbilian, Ə.Kavianpur, Ə.M. Mərağeyi, Ə.Vəkili, Ə.Sayi, M.Sədri və R.Nikbəxtin kitablarını,[99] hərəkat iştirakçılarını xatirələrini[100] göstərmək olar. Tanınmış İran tədqiqatçısı, uzun zamandan bəri Avropada yaşayan

---

[95] Cavid S. Quşeyi əz xatirat. Tehran: Çapxaneyi Xacə, 1353; Yenə onun: Xiyabanini xatırlayarkən // Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı – 90, s.77-84.

[96] Hidayət M. Xaterat və Xətərat, nəşre sevvom, Tehran: Zəvvar, 1982.

[97] Şərhe-hal və eğdemat-e Şeyx Məhəmməd Xiyabani-be ğələm-e çənd nəfər əz dustan və aşnayan-e u. Berlin: çapxane-ye İranşəhr,1304.

[98] Behnud M. Kostegan-e bər sər-e ğodrət-əz ğaimməqam ta Hoveyda. Tehran: Nəşr-Əli, 1378.

[99] Əzimi F. Bohran-e demokrasi dər İran 1320-1332. Tehran: 1374; Bəyani X. Ğaile-ye Azərbaycan. Tehran: Enteşarat-e Zəryab, 1355; Məhəmmədi R. Azərbaycan əz səltənəte Rza єah ta doulət-e Piєəvəri (1304-1324), Təbriz: 1392; Kavianpur Ə. Tarix-e Urmiye. Tehran: Çap-e əvvəl, 1378; Əfşar N.C. Ma və biganeqan, Tehran: nəşre vərcavənd, 1380; Mərağeyi Ə.M. Əz zendan-e Reza xan ta sədr-e firqeye demokrat-e Azərbaycan /bərrəsi zendegi və araye Seyyid Cəfər Cavadzade «Pişevəri» ba neqahi dubare be zuhur və suqut-e firqeye demokrat-e Azərbaycan, Tehran: Nəşre-e Əvhədi, 1381; Mollazade H. Razhayi sər be məhr- naqoftehayi və gayeye Azərbaycan. Təbriz: Nəsriye-ye Hatef, 1376; Sayi Ə. Kugəkiye mən və ançe be çeşm-e xod didəm, Negar. Tehran: Dövreye sevvom, şomare-ye 6, esfend 1391; Səfəri B. Ərdəbil dər gozargah-e tarix. Ərdəbil: Enşerat-e daneşgah-e azad eslami, 1362; Sədri M., Nikbəxt R. Peydayeş-e ferqeye demokrat-e Azərbaycan (Be ravayət-e əsnad və xatirat-e montaşər nəşode). Tehran: 2007.

[100] Nəzəri H. Qomaştegihayi bədfərcam. Muəssise-ye xədəmat-e fərhəngi Rəsa. Tehran: 1376; Maleki K. Xaterat-e seyasi. Tehran: Ravaq, 1981; Cahanşahlı Ə. Ma və biganegan. Berlin: 1982; Keşavvərz F. Mən mottəhem mikonəm. Tehran: Ravaq, 1980. Yəhya Q. Xatirələr. Bakı: Azərbaycan Demokrat Firqəsinin nəşri, 2006; Səlamullah C. O günün həsrəti ilə (xatirələr). Bakı: Yurd naşiyyatı, 2003.

T.Atabəyi öz əsərinin[101] böyük hissəsini Azərbaycan Demokrat firqəsinin və Milli hökumətin fəaliyyətinə həsr etmişdir. Dissertasiyada müasir İran tarixçilərinin, beynəlxalq münasibətlər üzrə mütəxəssislərin Azərbaycan Respublikasının tarixinin, daxili və xarici siyasətinin,[102] Qarabağ münaqişəsinin,[103] Naxçıvan məsələsinin,[104] Qafqazda geosiyasi vəziyyətin, İİR-nın xarici siyasətinin, İran-Azərbaycan əlaqələrinin təhlilinə həsr həsr edilmiş əsərləri[105] qonşu dövlətin Azərbaycanın problemlərinə, Azərbaycan-Ermənistan münasibətlərinə, Azərbaycan Respublikasının geosiyasi vəziyyətinə münasibətini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Göründüyü kimi, keçmiş sovet, o cümlədən Azərbaycan iranşünaslığında Azərbaycan tarixçilərinin və digər elm sahələri nümayəndələrinin Azərbaycan-İran münasibətləri probleminə dair baxışları ümumən geniş araşdırılmışdır. Lakin İran tarixçilərinin Azərbaycan tarixinə, ölkələrimizin ikitərəfli münasibətlərinə dair baxışları bizim tarixşünaslıqda kifayət qədər əks olunmamışdır. Buna görə də, bu problemin İran tarixşünaslığında tədqiqini araşdırmaq olduqca aktualdır. İran tarixçilərinin baxışları ilə tanışlıq və onun obyektiv dəyərləndirilməsi iki ölkə arasında münasibətlərin inkişafına da öz müsbət təsirini göstərə bilər. Ona görə də, İran tarixçilərinin

---

[101] Atabəyi T. Azərbaycan dər İran-e moaser. Tehran: Enteşarat-e Tus, 1376; Yenə onun: Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi, Bakı: Təhsil, 2002.

[102] Behnaz Ə.K. Cumhuriye Azərbaycan. Tehran: 1375; Vərcavənd P. İran və Qəfqaz (Aran və Şirvan). Tehran: Selseleye enteşarat-e nəşr-e Qətre, 1378; Mollazadə H. Cumhuriye Azərbaycan – neqah be ayənde.Təbriz: Enteşarat-e Ərk, 1373; Əhmədian B.Ə. Motalaat-e şenaxt-e cumhuriyye Azərbaycan. Tehran: Qova-ye mosəlleh, 2003; Hüseyni M.C. Seyaset-e xariciye Cümhuriyye Azərbaycan dər rabeteye ba Cümhuriyye Eslamiye İran. Payanname. Tehran: 1377.

[103] Kavə B. Bohran-e Qərabağ. Tehran: Enteşarat-e Pərvin, 1372; Əhmədian B. Rəvənd-e təhəvvulat dər bohran-e Qərəbağ. Motəalat-e Asiyaye mərkəzi və Qəfqaz, şomareye1- zemestan 1375, s.89-198.

[104] İnayətullah R. Cümhuri-ye xodmuxtar-e Nəxcivan. Motaleaate seyaiye Mərkəzi və Qəfqaz, sale əvvəl, şomare 2, payız 1371, s. 219-233; Cəmɛidi Rad C. Tarix-e seyasi-ye Nəxcəvan (Əz зiregi rusha ta suqut-e baleevikha 1828-1991). Tehran: Vəzarəte omure xarece, mərkəze зap və enteɛarat, 1379.

[105] Əhmədian B.Ə. Monasebəte İran və Cumhuriye Azərbaycan, Tehran: Vəzarət-e omur-e xarece, 2005; Raşedi H. Torkan və bərrəsi-ye tarix-e zəban və hoviyyət-e anha dər İran. Tehran: 1386; Morşidzade E. Rouşənfekran-e Azəri və hoviyyət-e melli və qovmi. Tehran: Nəşr-e Mərkəz, 1380.

Azərbaycanın siyasi tarixinə, coğrafiyasına, Azərbaycan xalqının və dilinin mənşəyinə, Azərbaycan dövlətçilik ənənənlərinə, Cənubi Azərbaycanda milli demokratik hərəkatlarının tarixinə, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikasının sovet dövründə və müstəqillik illərində tarixinə dair baxışların, konsepsiya və yanaşmaların hərtərəfli tənqidi təhlilə cəlb edilməsi zəruridir.

**Tədqiqatın mənbə bazası.** XX əsr Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında öyrənilən zaman problemin spesifikasına uyğun olaraq dövrün mənbələri  və arxiv sənədləri tədqiqata cəlb olunmuşdur. Belə ki, tədqiqat obyekti olan İran tarixçilərinin Azərbaycan tarixinə, coğrafiyasına, Azərbaycan xalqının mənşəyinə, dilinə və dövlətçilik ənənələrinə həsr edilmiş əsərləri təhlil olunarkən onların qeyri-obyektiv fikirlərini təkzib edən yüzlərlə mənbə və ədəbiyyatdan, o cümlədən ərəb və fars dilində olan mənbələrdən[106] və rusdilli mənbələrdən[107] geniş istifadə edilmişdir.

---

[106] Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar (ön söz: F.Əsədov; tərcümə edənlər: Z.Bünyadov, C.İskəndərli, H.Əkbərov, S.Süleymanova, E.Ağayeva). Bakı: 2005; Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989; Mahmud Kaşğari. Divanü-Lüğa-tit-türk; Müxtəsər-i Kitab əl-buldan. Əbubəkr Əhməd ibn İbrahim əl-Həmədani əl-məruf be ibn Fəqih, Leyden, 1885; İbn əl-Əsir. Əl-kamil fit-tarix (ərəb dilindən tərcümə edəni: M.Əfəndizadə). Bakı: 1959; Аджаиб ад-дунья (Чудеса мира). Перевод с персидского Л.П.Смирнова. Москва, 1993; Рашид ад-Дин. Переписка (перевод, введение и комментарий А.И.Фалиной). М.: 1971; Bəhmən Mirzə Qacar. Şükürname-yi şahənşahi. Bakı: 1999; Рашид ад-Дин Ф. Огузнаме (перевод с персидского, предисловие, комментарии, примечания и указатели Р.М.Шукюровой). Баку: 1987; Qəzvini H. Nüzhət əl-qülub. Tehran: 1336; Əbülqasm Kaşani. Tarix-i Ulcaytu. Tehran: 1348.

[107] Описание областей Адребижанских в Персии и их политического состояния сделанное пребывающим при его Высочестве царя Карталинском и Кахетинском Ираклия Темуразовиче Полковником Кавалером Бурнашовым в Тифлисе в 1786 г. Курск: 1793; Присоединение Восточной Армении к России. Сборник документов, I том. Ереван: 1972; Присоединение Восточной Армении к России. Сборник документов, том II, Ереван: 1972; Мирза Казымбек. Избранные произведения. Баку: 1985; Величко В.Л. Кавказ: русское дело и междуплеменные вопросы. Спб.: 1904; Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России. М.: 1831; Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. Сочинения, т. 2. М.: 1971; Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Спб.: 1911; Дербенд-наме (Румянцевский список). Перевод Г.-М.Р.Оразаева. В книге: «Дагестанские исторические сочинения». М.: 1993; Документы внешней политики.

Azərbaycan Xalq Cümhuriyyəti ilə İran Qacarlar dövləti arasındakı münasibətləri, Azərbaycan SSR ilə İran arsındakı münasibətləri öyrənmək üçün çap olunmuş rəsmi sənəd topluları mühüm əhəmiyyət daşıyır. Sənədli mənbələr sırasında İran İslam Respublikası XİN-nin nəşr etdirdiyi sənədlər toplusu[108] mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Xalq Cümhuriyyətinin İranla qarşılıqlı əlaqələrinin təşəkkülü prosesini Azərbaycan Respublikasında nəşr edilmiş sənəd toplularında[109] dövri mətbuat materiallarında ("Azərbaycan", «Азербайджан», "İstiqlal» qəzetlərində) izləmək mümkündür. Ə.Ə.Velayəti "İranın xarici əlaqələri məşrutənin ilk dövrlərində" adlı əsərində İ.Ziyadxanovun başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətindən ticarət əlaqələri qurmaq məqsədilə Tehrana bir heyət gəldiyini, poçt və gömrük sahəsində razılaşma imzalandığını, az sonra Vusuquddövlə hökümətinin Seyid Ziaəddin Təbatəbaini fövqəladə heyətlə Bakıya göndərdiyini, bir müddətdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin siyasi nümayəndəsi kimi Adil xan Ziyadxanın başçılığı ilə İrana heyət gəldiyini, Azərbaycan və Ermənistan nümayəndələrinin Tehranda diplomatik fəaliyyətə başladıqlarını göstərir.[110]

Sovet dövründə SSRİ-İran münasibətləri, bu münasibətlərdə Azərbaycanın yeri məsələsini öyrənmək baxımından İran İslam Respublikasında nəşr olunan İran dövlətinin XX əsrin 20-40-cı illərində xarici siyasəyinə dair sənədlər və materialllar toplanmış arxiv sənəd topluları mühüm əhəmiyyət kəsb edir.[111]

---

т.16. М.: 1965; Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. М.: 1946; Топчибашев А.М. Письма из Парижа. Баку: Азернешр, 1998.

[108] Heyəte Fövqəl'adəye Qafqaziyye. Əsnade müzakerat və qərardadhayi heyəti ezamiye İran be Qəfqaz təht sərpərəsti Seyyid Ziyaəddin Təbatəbayi (1919-1920). Tehran: Dəftəre motaalate siyasi və beynəlmeləli, 1379.

[109] Azərbaycan Paris Sülh Konfransında (1919 -1920). Bakı: Ozan, 2008; Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы иматериалы), Баку: Издательство "Азербайджан". 1998; Азербайджанская Республика. 1918-1920. Документы и материалы. Баку: 1998;

[110] Velayəti Ə.Ə. Revabəte xarici-ye İran dər doure-ye əvvəl məşrute. Tehran: 1374, s. 44.

[111] Torkoman M. Əsnad-e nəqs-e bitərəfi-ye İran. Tehran: Kavir,1370; Qütbi B. Qozide-ye əsnad-e cənge cahane-ye dovvom dər İran. Tehran: Ettelaat 1381; Əsnad-e əz rəvabət-e İran ba məntəqeye Qəfqaz. Tehran: Dəftəre mutalaat-e seyasi və beynəlmelli, 1372.

Cənubi Azərbaycanda S.C.Pişəvəri hərəkatı və Milli hökumətin tarixi ilə bağlı farsdilli mənbələr arasında Pəhləvi hakimiyyətinin yüksək siyasi simalarından biri, Məhəmməd Rza şahın ən yaxın dostu və sirdaşı olmuş Hüseyn Fərdustun xatirələri[112] mühüm yer tutur. Kitabda 1941-1946-cı illərdə Azərbaycan hadisələrinə ayrıca fəsil ayrılmışdır.

Milli hökumətin tarixinin araşdırılmasında Seyid Cəfər Pişəvərinin əsərləri və xatirələri[113] Milli hökumətin sənədlərindən ibarət toplular[114] da mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın mühüm mənbə bazasını dövri mətbuat materialları təşkil edir. Dissertasiyada fars və farsca-türkcə (azərbaycanca) qarışıq – "Varlıq", "Ajir", "Ayənde", "Azərabadeqan", "Azərbaycan", "Əmanət", "Ərk", "Əsr-e azadi", "İran", "İran-e ma", "Keyhani-həvai", "Məhd-e azadi", "Mərdom", "Peyam-e nou", "Saheb", "Səlam", "Səhər" "Şəms Təbriz" və türkcə (azərbaycanca) – "Araz" qəzeti, "Azərbaycan", "Azərbaycan" (ADF-nin orqanı), "Azərbaycan səsi", "Birlik", "Çənlibel", "Vətən uğrunda", "Molla Nəsrəddin", "Odlar yurdu", "Həqiqət", "Yoldaş" və başqa dillərdə nəşr olunan həm tarixi, həm də müasir mətbu orqanlarda çap olunmuş materiallar tədqiqata cəlb olunmuşdur.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətləri öyrənmək baxımından diplomatik mənbələrə,[115] o cümlədən İran

---

[112] Fərdust H. Zuhur və suğut-e səltənət. Celd-e əvvəl, Tehran: Enteşarat-e Ettelaat, 1369.

[113] Pişəvəri S.C. Firqəmizin tarixi işi, "Azərbaycan" qəzeti, 1944, 18 sentyabr, №6; Yenə onun: Xatirələr. Azərbaycan Demokrat Firqəsinin nəşri. Bakı: 2005; Yenə onun: Zindan xatirələri. Tərtibçi və elmi redaktor Əkrəm Rəhimli (Bijə). Bakı: 2014.

[114] 21 Azər -35. Sənədlər məcmuəsi (1324-1325) - Azərbaycan Milli Məclisi və Azərbaycan Milli Hökumətinin qərar və qanunları məcmuəsi, Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin nəşri, yersiz, 1359; Azərbaycan Demokrat Firqəsi, Azadlıq yolunun mübarizləri, II cild. Bakı: Azərbaycan, 1969; ADF-nin 3 sentyabr 1945-ci il tarixli müraciəti/ Azərbaycan Milli Hökuməti – 65. Bakı: 2010, s.28-47.

[115] Heydər Əliyev və Şərq: 6 cilddə, IV kitab: İran İslam Respublikası / tərt.-müəl. Q.Allahverdiyev, V.Sultanzadə; red. M.Qurbanlı. Bakı: Çaşıoğlu, 2005; Heydər Əliyev və Şərq: 6 cilddə,V kitab: İKT dövlətləri /tərt.-müəl. Q.Allahverdiyev, V.Sultanzadə; red. M.Qurbanlı. Bakı: Çaşıoğlu, 2005.

İslam Respublikası və Azərbaycan Respublikasının rəsmi dövlət saytlarına[116] da müraciət edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd XX əsr Azərbaycan tarixi məsələlərinin İran tarixşünaslığında tədqiqi səviyyəsini öyrənmək, əldə olunan fakt materiallarını müxtəlif mənbələr və mövcud elmi ədəbiyyatla müqayisə edərək elmi-məntiqi nəticələr çıxarmaq, müqayisəli təhlil metodundan istifadə edərək ümumiləşdirmələr aparmaqla Azərbaycan tarixinin saxtalaşdırılması hallarını üzə çıxarıb onların əsassızlığını sübut etmək və real həqiqətləri ortaya qoymaqdır.

Müəllif Problemin əhəmiyyətini, aktuallığını, həm də indiyədək ayrıca tədqiqat obyekti olmadığını nəzərə alaraq, əsas diqqəti XX əsr Azərbaycan tarixinin başlıca məsələlərinə yönəldilmişdir.

Dissertasiya işinin yuxarıda göstərilən əsas məqsədindən doğan aşağıdakı konkret vəzifələri həll etməyə səy göstərilmişdir:

- XX əsrdə İran tarixşünaslığının əsas inkişaf mərhələlərini və səciyəvi cəhətlərini müəyyənləşdirmək;
- İran tarixşünaslığının Azərbaycan tarixinin müxtəlif məsələlərinə müraciət etməsini zəruri edən tarixi şərtləri və amilləri açıb göstərmək;
- İran tarixşünaslığında Azərbaycan tarixinə münasibətdə mövcud olan əsas meylləri və görüşlərin tarixi təhlilini vermək;
- İranın ictimai fikrində və tarixşünaslığında Azərbaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinin saxtalaşdırılması xəttini izləmək;
- Azərbaycanın tarixi coğrafiyası ilə bağlı İran tarixşünaslığında mövcud olan baxışları ümumiləşdirmək və təhlil etmək;
- Azərbaycan türklərinin dövlətçilik ənənələrinin inkar edilməsinə yönəlmiş cəhdlərin tarixi və ideoloji-siyasi səbəblərini müəyyənləşdirmək;
- İran tarixşünaslığında Azərbaycan xalqının, dilinin və mədəniyyətinin təşəkkülünə dair mövcud olan yanaşmaların tənqidi analizini vermək;
- Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması və fəaliyyətinə İran tarixşünaslığının münasibətini araşdırmaq, Cümhuriyyətin tarixi, xarici siyasəti, İran-AXC əlaqələrinə dair İranda mövcud olan tarixi mənbələri öyrənmək və dövriyyəyə daxil etmək;

---

[116] Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: http://president.az/; Azərbaycan XİN-nin rəsmi saytı: http://www.mfa.gov.az/; İran İslam Respublikası Prezidentinin rəsmi saytı http://www. president. ir/en/?ArtID=3446; http://www. irna.ir/en/

- Cənubi Azərbaycanda milli demokratik hərəkatların tarixinin İran tarixşünaslığında əksini izləmək;

- Məşrutə hərəkatı və Xiyabanı hərəkatının sosial-siyasi səbəbləri və nəticələri haqqında İran tarixçilərinin baxışlarını təhlil edərək ümumiləşdirmək;

- 21 Azər hərəkatı və Milli hökumətin fəaliyyəti haqqında İran tarixşünaslığında mövcud olan ümumi və fərqli yanaşmaları müəyyənləşdirmək;

- Sovet dövrü Azərbaycan tarixi, İran-Azərbaycan əlaqələri haqqında İran tarixşünaslığının materiallarını üzə çıxarmaq və tədqiq etmək;

- İran tarixşünaslığında Azərbaycan Respublikasının daxili vəziyyəti, xarici siyasəti, İran-Azərbaycan münasibətlərinin inkişaf mərhələləri məsələlərinə müxtəlif yanaşmaların elmi təhlilini aparmaq;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti haqqında İran tarixşünaslığında mövcud olan müxtəlif mövqeləri işıqlandırmaq;

- İran tarixşünaslığında Naxçıvanın tarixi ilə bağlı mövcud olan fikirlərin əsassızlığını sübut etmək.

**Tədqiqatın metodoloji əsası.** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur. Bu metod isə tarixşünaslıq səciyyəsi daşıyan tədqiqat əsərlərinin əksəriyyətində, o cümlədən təqdim olunan dissertasiya işində labüd və zəruridir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya XX əsr Azərbaycan siyasi tarixinin əsas məsələlərinin əks olunduğu İran tarixşünaslığına həsr edilmiş ilk kompleks xüsusi tarixşünaslıq tədqiqatıdır. Kompleks yanaşmanın tətbiqi sayəsində İran tarixşünaslığında Azərbaycan tarixi ilə bağlı tədqiqatların əsas istiqamətlərini, metodoloji üsullarını, səciyyəvi cəhətlərini müəyyənləşdirmək mümkün olmuşdur. Bu isə öz növbəsində Azərbaycan tarixinin bir çox problemlərinin öyrənilməsinə dair İranın və Azərbaycanın elmi-tarixi ənənələrinin sintezini və müqayisəsini aparmağa imkan vermişdir.

Müəyyən edilmişdir ki, İran tarixşünaslığında Azərbaycan tarixi ilə bağlı məsələlərə yanaşmada ümumən siyasi və ideoloji amillərin, paniranist konsepsiyanın üstünlük təşkil etməsi, mənbə bazasının məhdudluğu, daha

doğrusu, məqsədyönlü şəkildə bir sıra obyektiv mövqeli mənbələrin tədqiqata cəlb edilməməsi, Azərbaycan Respublikası müəlliflərinin tədqiqatlarından yetərincə istifadə edilməməsi kimi cəhətlər xasdır.

Tədqiqat işində eyni zamanda İran tarixşünaslığında Azərbaycan tarixinin müxtəlif məsələlərinə münasibətdə müşahidə olunan ideoloji səbəblərdən qaynaqlanan yeni meyllər də üzə çıxarılmışdır.

İran tarixşünaslığının Azərbaycan tarixinə həsr edilmiş bir sıra əsərləri ilk dəfə olaraq müqayisəli-tənqidi təhlilə cəlb edilmişdir. Bu isə müxtəlif tarixi dövrlərdə İranın ictimai-siyasi və elmi-mədəni dairələrinin Azərbaycan tarixinə münasibətini daha aydın dərk etməyə imkan yaradır. İran tarixşünaslığının təhlili Azərbaycan tarixinə "kənar gözlə" baxmaq, fərqli yanaşmaları qiymətləndirmək və tənqidi münasibət formalaşdırmaq imkanı da verir.

Keçən əsrin 90-cı illərində diplomatik xidməti ilə əlaqədar Azərbaycan-İran münasibətlərinin formalaşdırılması və inkişafı proseslərində bilavasitə iştirak etmiş dissertasiya müəllifinin şəxsi müşahidələri də qarşılıqlı münasibətlərin və Azərbaycan tarixinin ayrı-ayrı məsələlərinin İran tarixşünaslığında necə əks olunmasını obyektiv qiymətləndirməyə şərait yaradır.*

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, İran azərbaycanşünaslarının əsərlərinin tarixşünaslıq cəhətdən təhlili bütövlükdə İranın ictimai və elmi fikrində Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə, xalqımızın dövlətçilik ənənələrinə və milli demokratik hərəkatlarına münasibətdə mövcud olan müxtəlif mövqeləri və yanaşmaları müəyyənləşdirməyə, sistemləşdirməyə və nəticələr çıxarmağa imkan yaradır.

Dissertasiyanın materiallarından, ədəbiyyatından və nəticələrindən Azərbaycan tarixinə dair tədqiqatların aparılmasında, kitab və dərs vəsaitlərinin, mühazirə kurslarının hazırlanmasında istifadə oluna bilər. Dissertasiya həmçinin xarisi siyasət və beynəlxal münasibətlər sahəsində fəaliyyət göstərən, İİR-nın daxili və xarici siyasətinin tədqiqi ilə məşğul olan, qonşu dövlətlə qarşılıqlı əlaqələrin inkişafı prosesində iştirak edən dövlət və qeyri-dövlət qurumlarının fəaliyyətində gərəkli ola bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin nəşr edilmiş kitab və məqalələrində, beynəlxalq və ölkə miqyaslı elmi konfranslarda, simpozium və seminarlardakı məruzələrində öz əksini tapmışdır. Dissertasiya işi Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Mənbəşünaslıq və tarixşünaslıq" şöbəsinin

genişləndirilmiş iclaslarında müzakirə edilərək müdafiəyə təqdim edilmişdir.

**Dissertasiyanın strukturu** Dissertasiya işi girişdən, 11 paraqraf olmaqla 5 fəsildən, nəticə hissəsindən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSETASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"İran tarixşünaslığında Azərbaycan tarixinə ümumi konseptual yanaşma"** adlanan I fəslin ***"İran tarixşünaslığında Azərbaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinə ümumi baxış"*** adlı yarımfəslində İran tarixçilərinin Azərbaycanın tarixi coğrafiyası və dövlətçilik trixi məsələlərinə ümumi baxışı tədqiq olunuşdur. İran tarixşnaslığında Azərbaycanın tarixi coğrafiyası və dövlətçilik tarixi məsələlərinin saxtalaşdırılması xətti iki istiqamətdə aparılmışdır. 1. İran tarixşünalığında "Azərbaycan" istilahının yalnız İranın şimal əyalətlərinə aid olduğu, Araz çayından şimaldakı torpaqların heç zaman Azərbaycan adlanmadığı, indiki Azərbaycan Respublikasının ərazisinin tarix boyu əsasən Arran, Muğan və Şirvan kimi coğrafi adlar daşıdığı iddia olunur; 2. Azərbaycan türklərinin dövlətçilik ənənələrinin, onların İranın, ümumiyyətlə regionun siyasi tarixində oynadıqları rolun inkar edilməsinə cəhdlər göstərilir ki, bu da bütövlükdə İran tarixşünaslığında paniranizm nəzəriyyəsinin ana xəttini təşkil edir.

İran tarixçiləri Cənubi Azərbaycanın və Şimali Azərbaycanın tarixən bir-biri ilə əlaqəsi olmayan başqa-başqa ərazilər olduğunu sübut etmək üçün, bununla da Azərbaycan xalqının etnik-tarixi birliyini inkar etmək məqsədilə, qeyd edildiyi kimi, Azərbaycan toponominin və etnoniminin ətrafında disskusiyalar açır, müxtəlif mənbələrdəki məlumatları kontekstdən çıxarmaqla bu toponimin ancaq hazırda İran İslam Respublikasının ərazisində olan Azərbaycana aid olduğunu göstərməyə çalışırlar. Seyid Əhməd Kəsrəvi 1928-ci ildə Tehranda çap etdirdiyi «Şəhriyarane qomnam» adlı əsərində yazır: «Təəccüblüdür ki, Arrana indi Azərbaycan adı vermişlər. Baxmayaraq ki, Azərbaycan və ya Azərbayeqan Arranın yanında yerləşmiş digər ərazinin adıdır. Ən qədimdən əldə məlumat vardır ki, bu iki

ərazi həmişə bir-birindən ayrı olmuş və heç vaxt Arran, Azərbaycan adlanmamışdır...».[117] Həmin fikri Mehrdad Azəri isə 1982-ci ildə Tehranda 4000 nüsxədə çap etdirdiyi «Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran» adlı əsərində[118] və Səyavuş Bəşiri 1984-cü ildə Parisdə nəşr etdirdiyi «Azər-Azərbayqan» adlı əsərində[119] eynilə təkrar etmişlər. M.C. Məşkur da Azərbaycan adının tarixi ad olmadığını, siyasi və yeni bir istilah olduğunu iddia etmişdir.[120] Bu məsələlər İnayətullah Rzanın 1981-ci ildə Tehranda üç min, 1988-ci ildə isə on min tirajla çap olunan «Azərbaycan və Arran (Albaniya-ye-Qəfqaz)» adlı əsərində kobud sürətdə saxtalaşdırılmışdır.[121]

Bəhs etdiyimiz İran tarixçiləri və digərləri Azərbaycanın tarixi coğrafiyası ilə bağlı öz qeyri-elmi fikirlərini sübut etmək üçün bir sıra qədim və orta əsr müəlliflərinin əsərlərinə və hətta Rusiyada çarizm dövründə nəşr edilmiş kitblara istinad edərək guya 1918-ci ilə qədər yazılmış sənədlərdə də Aranın və Şirvanın heç vaxt Azərbaycan adlandırılmadığını, bəzi hallarda bu vilayətlərin Qafqaz adlandırıldığını iddia etmişlər. İran tarixçiləri öz müddəalarını təsdiq etmək üçün ayrı-ayrı faktları seçib götürür, bu müddəalara uyğun gəlməyən faktların üstündən isə sükutla keçməyə cəhd göstərirlər. Əslində onların istifadə etdikləri mənbələrin bəzilərində Azərbaycan məfhumunun hər iki əraziyə aid edildiyi görünür. Lakin onlar pan-İranist fikirlərinin əksini göstərən bu sənəd və mənbələrin varlığını danırlar. Bu kimi sənəd və materiallar kifayət qədərdir.[122] Azərbaycan tarixçiləri və coğrafiyaçıları “Aran”, “Şirvan” və digər tarixi-coğrafi terminlərin mövcudluğunu heç zaman inkar etməmişlər, Azərbaycanda bu tarixi və coğrafi bölgələr indi də həmin adla adlanırlar.

İstər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan tarixçilərinin İran tarixçilərinin Azərbaycanın tarixi coğrafiyası ilə bağlı qərəzli

---

117 Kəsrəvi Ə. «Şəhriyarane qomnam». Tehran: 1928, s. 246, 265.

118 Mehrdad Azəri. Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran, Tehran: 1982, s. 23.

119 Bəşiri S. Azər - Azərbaycan, Paris, 1984, I çapı, s. 31-41.

120 Məşkur M.C. Nəzəri be tarixe-Azərbaycan və asare-bastani və cəmiyyətşenasi, səh. 4.

121 Rza İ. Azərbaycan və Ərran, çap-e əvvəl, Tehran: 1981; İnayətullah Rza. Azərbaycan əz kohəntərin əyyam ta emruz. Azərbaycan və Ərran, çap-e dovvom, Tehran: 1988.

122 Tağıyeva Ş.Ə. Müasir İran burjua tarixşünaslığında Azərbaycan xalqının etnik birliyinin inkar edilməsi haqqında, s.117

fikirlərini faktlarla və elmi dəlillərlə təkzib edən bir çox əsərləri nəşr edilmişdir.[123] Azərbaycan tarixçiləri ən qədim dövrlərdən tutmuş elə 1918-ci ilə qədər yüzlərlə tarixi mənbələrdə Araz çayının şimalındakı ərazinin də Azərbaycan adlandırıldığını sübut etmişlər.

İran tarixçiləri Azəbaycan tarixinin ayrı-ayrı dövrlərini də saxtalaşdırmaqla onun bütün Şərqin, o cümlədən İranın tarixində oynadğı rolu da inkar etməyə səy göstərirlər. Halbuki, Azərbaycan qədim insanların ilk məskənlərindən, bəşər sivilizasiyasının ilk beşiklərindən biri hesab olunur. Bunu Azərbaycan ərazisində aşkar edilmiş maddi - mədəniyyət abidələri, o cümlədən Azıx mağarasında tapılmış ilk insan nümunələri, Qobustan qaya üstü təsvirləri də təsdiq edir. Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik xalqlarındandır. Azərbaycan xalqı çoxminillik dövlətçilik tarixinə malikdir.

Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzə-

---

[123] Fazili A.H. Azərbaycan tarixinin bəzi problemlərinin İran burjua tarixçiləri tərəfindən saxtalaşdırılmasına dair, s.212-218; Эфендиев О. К освещению некоторых вопросов истории сефевидов в современной иранской историографии, с.125-140; Musəvi T.M. Cəmaləddin Fəqihin "Aturpatakan və nehzət-e ədəbi" əsəri haqqında /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı: Elm, 1978, s.159-167; Azərli M.İ.Azərbaycan dili haqqında ərəbdilli mənbələrdə verilən məlumatların bəzi İran alimləri tərəfindən saxtalaşdırılması /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı: Elm, 1978, s.167-176; Piriyev V. Azərbaycanın XIII-XIV əsrlər tarixinin İran burjua tarixşünaslığında təhrifinə dair /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, Bakı: Elm, 1978, s.177-186; Dəlili H.Ə. XVIII əsr Azərbaycan tarixi haqqında bəzi müasir İran tarixçilərinin qeyri-elmi münasibətlərinə dair /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, Bakı: Elm, 1978, s.187-193; Əliyev M.M. Bəzi İran mətbuat orqanları səhifələrində Azərbaycan xalqı və onun mənşəyi məsələləri /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, Bakı: Elm, 1978, s.205-211; Tağıyeva Ş. Müasir İran burjua tarixşünaslığında Azərbaycan xalqının etnik birliyinin inkar edilməsi haqqında, s. 114-124; Köçərli T. Qarabağ. Yalan və həqiqət, Bakı: "Əbilov, Zeynalov və oğulları", 1998, 153 s.; Yenə onun: Erməni saxtakarlığı. Tarixi arayış, Bakı: 2001; Tahirzadə Ə. Ə.Kəsrəviçilik: Kökü, özəyi, ardıcılları, dirildilməsi-I. /Azərbaycan filologiyası məsə-lələri, II buraxılış. Bakı: Elm, 1984, s.44-59; Tahirzadə Ə. Ə.Kəsrəviçilik: Kökü, özəyi, ardıcılları, dirildilməsi-II. /Azərbaycan filologiyası məsələləri, III buraxılış. Bakı: Elm, 1991, s. 61-91; Mədətli E. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı: Təhsil, 2011.

sində yaranmışdır. Burada meydana gəlmiş ən qədim dövlətlər bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynamışlar. E.ə. IV əsrin sonlarında Azərbaycanın cənubunda Atropatena, şimalında Albaniya dövləti yaranmışdı. Tarixin sonrakı dövrlərində də Azərbaycan ərazisində qüdrətli dövlətlər mövcud olmuşdur. İran tarixçilərindən Əhməd Kavyanpur, Əli Dehqan, Məhəmməd Cavad Məşkur, Manuçehr Murtəzəvi, Cəmaləddin Fəqih həmin dövlətlərin Azərbaycan tarixi ilə heç bir əlaqəsinin olmadığını iddia etməkdədirlər.[124] İran tarixşünaslığı Azərbaycan dövlətçilik tarixinin mühüm səhifəsini təşkil edən Səfəvi dövlətini Azərbaycan xalqından ayırmaq üçün xüsusi canfəşənlıq göstərir. İndiyədək İran tarxşünaslığı və ona əsaslanan bəzi Qərb, Rusiya tarixçiləri Səfəvilər dövlətini İranın milli dövləti kimi qələmə verirlər. Əhməd Tacbəxş, Rəhimzadə Səfəvi, Nizaməddin Mənuçehr Şeybani, Məhəmməd Cavad Məşkur, Z.Səbətiyan, Əbdülhüseyn Nəvai[125] və başqalarına görə VII əsrdə Sasani imperiyasının süqutundan sonra farslar öz milli dövlətini itirmiş və yalnız Səfəvilər imperiyasının yaranması ilə onlar yenidən milli dövlətçiliyini bərpa etmişlər. Bu tarixçilərin nəzərincə, Səfəvilər sülaləsi mənşəcə İran (ari) sülaləsi olaraq İranı yenidən birləşdirmişdir. Halbuki, Azərbaycan və bir sıra dünya alimləri öz əsərlərində Səfəvilər dövlətinin yaranmasında və fəaliyyət göstərməsində Azərbaycan tayfa birliklərinin əsas rol oynadığını, bu dövlətin əslində Azərbaycan dövləti olduğunu tam sübut etmişlər (Bu barədə ətraflı bax:[126]). Azərbaycanın görkəmli tarixçisi Y.M.Mahmudov "Azərbaycan: qısa dövlətçilik tarixi" kitabında Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dövlətçiliyinin özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoyduğunu bildirir. O, Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xə-

---

[124] Kavyanpur Ə. Tarixe Rzaiyyə, İ cild, Tehran: 1348; Yenə onun: Tarixe ümumiye Azərbaycan. Tehran: 1346; Dehqan Ə. Sərzəmin-e Zərdoşt. Rzaiyyə, İ cild, Tehran: 1348; Məşkur M.C. Nəzəri be tarix-e Azərbaycan və asar-e bastani və cəmiyyətşenasan-e, Tehran: 1349; Murtəzəvi M. Nəqş-e Azərbaycan. Təbriz, 1345; Fəqih C. Aturpurakan və nehzət-e ədəbi. Tehran: 1346.

[125] İqbal Aştyani A. Tarix-e mofəssəl-e İran, be kuşeşe Məhəmməd Dəbirsəyaqi. Tehran, 1320; Tacbəxş Ə. İran dar zaman-e Səfəviyye, Təbriz, 1340; Rəhimzade Səfəvi. Şərh-i cəng və tarix-i zendegana şah İsmayıl Səfəvi, Tehran, 1341; Şeybani N.M. Təşkil-e şahənşahiye Səfəviyye, Ehyayi vəhdəti melli, Tehran, 1346; Məşkur M.C. Nəzəri be tarix-e Azərbaycan, Tehran, 1349; Səbətiyan Z. Əsnad və namehayi tarix-e dövreyeye Səfəviyye. Tehran: 1342; Nəvai Ə. Şah İsmayıl Səfəvi. Əsnad və muqatibat-e tarixi ba yaddaşthayi təfsili. Tehran. 1347.

[126] Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: "Şərq-Qərb", 2007.

tainin babasının başladığı işi başa çatdırdığını, şimallı-cənublu bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildiyini qeyd edir.[127]

İran tarixçiləri əvvəlki dövrlər kimi XVIII-XIX əsrin əvvəllərində Azərbaycan ərazisində baş vermiş tarixi hadisələri bəsitləşdirərək, xanlıqlar formasında təşəkkül tapmış Azərbaycan dövlətlərinin müstəqilliyini inkar edirlər. Bunun bariz nümunəsini biz Məhəmməd Kazımın, Hadi Hidayətin və başqalarının əsərlərində görürük.[128]

İran tarixşünaslığı paniranizm nəzəriyyəsi mövqeyindən çıxış edərək Azərbaycan xalqının mənşəyini və tarixini, Azərbaycanın tarixi coğrafiyasını, dövlətçilik tarixini saxtalaşdırmaqla əslində müəyyən dairələrin millətçi-şovinist siyasətinə xidmət edirlər. Bu isə Azərbaycan və İran xalqlarının mənafeyinə zidd olmaqla yanaşı, hər iki xalqın yaxınlaşmasında, onlar arasında bərabərhüquqlu münasibətlərin inkişafında maraqlı olmayan qüvvələrin xeyrinədir.

I Fəslin ***"Azərbaycan xalqının, dilinin və mədəniyyətinin təşəkkülünə münasibət"*** adlanan II yarımfəslində həmin məsələlərə İran tarixçilərinin münasibəti təhlil edilmişdir.

Müasir İran tarixşünaslığında əsas meyllərindən biri Azərbaycan xalqının mənşəyinin saxtalaşdırılması, onun müstəqil inkişafını, avtoxton xarakterini inkar etmək, mədəniyyətini və dilini İranını ümumi tarixində və mədəniyyətində, fars dilində əritmək cəhdləridir. Paniranizm mövqeyindən çıxış edən bir sıra İran tarixçiləri Azərbaycan türk millətinin mövcudluğunu, Şimali Azərbaycanda yaşayan azərbaycanlılarla Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar arasında etnik-milli birliyi şübhə altına salır, bununla da cənubda yaşayan azərbaycan türklərinə qarşı İranda yeridilən ayrı-seçkilik və assimliyasiya siyasətinə bir növ haqq qazandırmağa çalışırlar. Azərbaycan türklərinin tarixinə, dilinə, mədəniyyətinə münasibətdə İran tarixşünaslığında mövcud olan bu şovinist-millətçi baxışların ilk konturları hələ XIX əsrin sonu – XX əsrin ilk illərində özünü göstərməyə başlamışdır. Bunu həmin dövrdə Azərbaycan türklərinin milli kimlik şüurunun inkişafına, milli hüquqları uğrunda mübarizəsinə fars millətçilərinin mənfi əks-reaksiyası kimi səciyyələndirmək olar.

---

[127] Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, s.30-31.

[128] Kazım M. Nameye Aləm-ara-yi Nadiri, I cild. M.: 1960; Hidayət H. Tarix-e Zəndiyye, cild-e əvvəl. Tehran: 1334.

Keçən əsrin 20-30-cu illərində İranda Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə qarçı fars miillətçi ideoloqlarının, tarixçilərinin hücumları genişləndi. Bu zaman əsas məqsəd, "vahid millət" şüarı altında İranda yaşayan bütün qeyri-fars millərlərin, xüsusən sayca ölkənin ikinci əhalisi sayılan Azərbaycan türklərinin mədəniyyətini və dilini farslaşdırmaq idi. H.Tağızadə, K.İranşəhr, Şəfəq Rzazadə, Mahmud Orfan, Rəhimzadə Səfəvi, Mirzə Mahmudxan,, Əli Cəvahürül Kəlam və başqaları "Ayənde", "Namey-e təcəddod", "Şəfəq-e çorx", "İranşəhr", "Pərçəm", "Tufan-e həftegi", "Soxən", "Daneş" kimi mürtəce qəzet və jurnallarda məqalələrlə çıxış edərək Azərbaycan dilini, onun tarixini saxtalaşdırır, azərbaycanlıları qədim farsdilli xalq hesab edərək, onların guya əvvəllər fars dilinin pəhləvi, fars, dəri, "azəri" ləhcələrində danışdıqlarını, yalnız monqol-tatar yürüşlərindən sonra türk dilini qəbul etdiklərini iddia edirdilər.[129] Bu müəlliflər arasında Şəfəq Rzazadə xüsusilə fərqlənirdi. O, hələ 1924-cü ildə "Nameyi təcəddod" jurnalında yazırdı ki, azərbaycanlıların mənşəyi ari irqindən olub, onlar qədim fars dilində danışırmışlar.[130]

Keçən əsrin 40-60-cı illərində bu mürtəce mövqeni Əmir Əhmədi, İsa Şəhabi, Davud Pirniya, Mohit Təbətəbai, Məhəmmədhəsən Gənc, Ələkbər Rizvan, Moctəba Minəvi və başqaları müdafiə edirdilər. Qeyd etmək lazımdır ki, Ə.Kəsrəvinin İranda nəşr olunan kitablarında Azərbaycan türklərinin tarixinə, dil və mənəviyyatına tamamilə fərqli və qərəzli münasibətin şahidi oluruq. Görünür, Ə.Kəsrəvi qeyri-farslara qarşı yeridilən şahlıq siyasətinə xidmət göstərməyə çalışmışdır. Bu baxımdan onun "Azəri, yaxud Azərbaycanın qədim dili" kitabı xüsusi araşdırılmağa möhtacdır.[131] Lakin, təəssüflə qeyd etməliyik ki, onun tərəfindən əsası qoyulmuş Azərbaycan türklərinin soykökü və türk dili tarixinin saxtalaşdırılması ənənəsi on-

---

[129] Rəhimzadə S. Nofuz-e İran dər Şərq, "Şəfəq-e sorx" jurnalı, sale çəharom, № 427; "İranşəhr" jurnalı, əvvəli azər 1302; Orfan M. Zəban-e farsi dər Torkestan, "Ayənde" jurnalı, tir 1304, №1; "Tufan-e həftegi", 1307, 3 mehr; Əliyev M.M. Bəzi İran mətbuat orqanları səhifələrində Azərbaycan xalqı və onun mənşəyi məsələləri. /Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı, Bakı, Elm, 1978, s.205-211, s.205-206.

[130] Rzazadə Ş. "Türk mütəfəkkirinin fikrincə. "Nameyi tacəddod", 8, 15, 17. 1303; Əliyev M.M. Bəzi İran mətbuat orqanları səhifələrində Azərbaycan xalqı və onun mənşəyi məsələləri, s.206.

[131] Kəsrəvi Ə. Azəri ya zəban-e bastan-e Azərbaycan. Tehran: Enteşarat-e muəssise-ye mətbuati-ye Şərğ, 1309, s. 114.

dan sonra gələn, hətta indi də fəaliyyət göstərən tədqiqatçılar tərəfindən davam etdirilmişdir.[132]

İran tarixçiləri Azərbaycan türklərinin özünəməxsus milli mədəniyyətini də inkar edərək, bu mədəniyyəti lokal mədəniyyət hesab edir, onu böyük İran mədəniyyətindən kənarda təsəvvür etmir. Əlbəttə, türk və İran xalqlarının uzun əsrlər boyu birlikdə yaşamaları onların mədəniyyətlərinin, ədəbiyyatlarının bir-birinə yaxınlaşmasına, qarşılıqlı təsir göstərməsinə səbəb olmuşdur. Unutmaq olmaz ki, XI-XV əsrlərdə İran ərazisində müxtəlif türk sülalələrinin, XV-XIX əsrlərdə Azərbaycan türk sülaləri olan – Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacarların zamanında türk dili fars dili ilə yanaşı, elm, ədəbiyyat dili olmaqla bərabər, rəsmi dövlət səviyyəsində də mühüm mövqeyə malik olmuşdur. Hətta, XVI əsrin əvvəllərində əsası qoyulan vahid, mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətində (1501-1736) türk dili dövlət dili səviyyəsinə yüksəlmiş, fars dili ilə yanaşı dövlətlərarası diplomatik yazışmalarda geniş istifadə olunmuşdur. Təəssüf və təəccüb doğuran haldır ki, indiki qloballaşan və beynəlxalq kütləvi informasiya məkanının birbaşa təsiri altında olan dünyada İran tədqiqatçıları arasında hələ də yüz il bundan əvvəl Ə.Kəsrəvinin qeyri-elmi mülahizələrinin təsiri ilə İranda yaşayan müxtəlif xalqların – ölkə əhalisinin yarısından çoxunu təşkil edən türklərin (Azərbaycan türkləri), kürdlərin və ərəblərin uydurma «İran irqinə» mənsub olduqlarını, onların guya tarixi hadisələrin təsiri ilə məcburən türk, ərəb və kürd dilində danşdıqlarını iddia və təbliğ edənlər vardır. Bu da ondan qaynaqlanır ki, İranda fars dili yeganə rəsmi dildir, ölkənin əsas qanununda – konstitusiyasında təsbit olunmasına baxmayaraq, hələ də Azərbaycan türkcəsində təhsilə yol verilmir, Azərbaycan türkcəsi hətta bir fənn kimi də tədris planlarında yoxdur.

Dissertasiyanın “**Azərbaycan Xalq Cümhuriyyətinn tarixinin İran tarixşünaslığında dəyərləndirilməsi**” adlanan və iki yarımfəsildən ibarət olan II fəslində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və İran Qacarlar dövlətilə münasibətlərinin İran tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmışdır. ***“Azərbaycan Xalq Cümhuriyyətin yaranması və fəaliyyəti”*** adlanan birinci yarımfəsildə öncə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına İran rəsmilərinin münasibətinə aydınlıq gətirilir. İslam dünyasında məhz Azərbaycan xalqının ilk dünyəvi dövlət yaratması beynəlxalq

[132] Zəka Y. Karvənd-e Ə.Kəsrəvi. Məcmueye 78 resale və qoftar əz Əhməd Kəsrəvi. Tehran: 1352; Reza İ. Azərbaycan - əz kuhəntərin əyyam ta emruz. Təbriz: Enteşarat-e Mərd-e Emruz, 1367.

aləmdə, xüsusən Azərbaycanın yerləşdiyi regionda heç də birmənalı qarşılanmadı. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin elan edilməsi xarici dövlətlər içərisində ilk növbədə Sovet Rusiyası və İran tərəfindən ciddi etirazla qarşılandı. İranın rəsmi dairələri ölkənin şimal sərhədləri yaxınlığında onların nəzərincə dəqiq müəyyən edilməmiş sərhədlər daxilində yeni yaradılmış dövlətin Azərbaycan Xalq Cümhuriyyəti adlandırılmasına xüsusi qısqanclıqla yanaşaraq şübhələnirdilər ki, bu yeni hökumət Türkiyənin köməyi ilə Cənubi Azərbaycana ərazi iddiaları edə bilər. 1918-ci il iyun ayının 4-də Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsinin imzalanması bu şübhələri daha da artırdı. Buna görə də İranın rəsmi dairələri müxtəlif xarici yazışmalarda Azərbaycan hökumətini "Qafqaz Azərbaycanı" kimi adlandırmağa çalışırdı.[133]

Şimali Azərbaycan ərazisində yeni dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti cümhuriyyətin təşəkkül tapdığı ilk gündən İran dövlətinin siyasi dairələrinin maraq dairəsinə düşmüşdür. Bunu sonrakı illərdə İranda nəşr edilmiş sənədlər topluları və ayrı-ayrı müəlliflərin əsərləri də sübut edir. İran tarixçiləri, o cümlədən S.Ə.Kəsrəvi, İnayətullah Rza, Mehrdad Azəri və digərləri yazırlar ki, guya «Azərbaycan» adını ilk dəfə 1918-ci ildə Müsavat partiyası qoymuşdur. Sonra da Sovet dövləti bu addan istifadə etmişdir. Onların fikrincə, «Azərbaycan» adının yeni təsis edilmiş respublikaya verilməsi əzəldən yaramaz və pis niyyətlə edilmişdi. Pantürkistlər «Müsavat partiyası rəhbərlərini öz nüfuzları altına salaraq istəyirdilər ki, öz keçmiş röyalarını həyata keçirə-rək, yəni bir türkdilli imperiya təşkil edib İran Azərbaycanını da bu imperiyaya birləşdirməyə nail olsunlar və yeni təsis edilmiş cümhuriyyətə Azərbaycan adının seçilməsinin hədəfi də zahirən bu idi ki, guya, Azərbaycan vahid ərazinin adıdır ki, İran-Rus müharibələri və ixtilafları nəticəsində iki parçaya bölünübdür». Onun şimal hissəsi rus istilasından azad olunduqdan sonra cənub hissəsi də İranın ağalığından azad olmalıdır.[134]

1919-cu ilin ortalarına qədər Azərbaycan Xalq Cümhuriyyətinin İranla münasibətlərində qeyri-müəyyənlik özünü göstərirdi. Bu, İranın siyasi dairələrinin Şimali Azərbaycan ərazisində respublika üsul-idarəli bir dövlətin

---

[133]Swietochovski T. Russia and Azerbaijan, p.71; Həsənli C.P.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, "GARISMA" MMC, 2009, s.84.

[134] Mehrdad A. Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran. Tehran, 1982, s.21.

yaranmasına, həmin dövlətin ölkənin adına uyğun olaraq Azərbaycan adlandırılmasına qısqanc münasibətindən irəli gəlirdi. Buna görə də, təqribən il yarım ərzində Şah hökuməti Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə bərabərhüquqlu münasibətlər qurmaqdan çəkinirdi. Buna baxmayaraq, iki dövlətin ayrı-ayrı strukturları arasında əlaqələr təşəkkül tapırdı. Xüsusən, 1918-ci ilin payızında İstanbul konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin İranın Xarici İşlər nazirliyinin nümayəndələri ilə görüşləri qarşılıqlı siyasi-diplomatik münasibətlərin inkişafında əhəmiyyətli rol oynamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin İranla ilk diplomatik münasibətləri 1919-cu ilin yazına təsadüf edir. 1919-cu il fevralın 1-də Azərbaycan hökuməti İran hökuməti ilə danışıqlar aparılması üçün Tehrana Azərbaycan Respublikasının Fövqaladə diplomatik missiyasını göndərməyi qərara aldı. Hökumətin 20 mart 1919-ci il tarixli qərarı ilə missiyanın mandatı təsdiq edildi. Missiyaya İsmayıl xan Ziyadxanov başçılıq edirdi. Missiyaya Azərbaycan hökuməti adından İranın Şah hökumətinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını elan etmək və Azərbaycanla İran arasında qarşılıqlı dostluq münaibətləri yaratmaq məqsədi ilə Azərbaycan hökuməti adından aşağıdakı məsələlər üzrə zəruri danışıqlar aparmaq səlahiyyəti verilirdi. Missiyanın qarşısında həmçinin: 1. Qarşılıqlı diplomatik nümayəndəliklər – İranın Bakıda və Gəncədə, Azərbaycanın isə Tehranda, Rəştdə, Təbrizdə, Məşhəddə – nümayəndələrini yaratmaq; 2. Ticarət, poçtteleqraf, gömrük, su, dəmir yolu, şose rabitəsi üzrə gələcək konvensiyaların bağlanması üçün ümumi müddəalar işləyib hazırlamaq; 3. Sərhəd xəttinin mühafizəsi üçün qarşılıqlı tədbirlər görmək kimi vəzifələr qoyulmuşdu.[135]

İran-Azərbaycan siyasi əlaqələrinin inkişafında Paris sülh konfransında olan Azərbaycan və İran nümayəndə heyətlərinin təmasları da mühüm rol oynayırdı. 1919-cu ilin oktyabr ayında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun İranın yeni xarici işlər naziri Nüsrət-üd-dövlə Firuz Mirzə ilə görüşü oldu. Az vaxt içərisində Parisdə Azərbaycan-İran birgə komissiyası yaradıldı və ora Azərbaycan nümayəndələrindən M.Mehdiyev və C.Hacıbəyov, İran tərəfindən isə Parisə gəlmiş yeni nümayəndələr – Zəki ul mülk və Müstəşər ud dövlə daxil oldular.[136] Bir neçə

---

[135]Азербайджанская Демократическая Республика. Внешняя политика, с.185.
[136] Топчибашев А.М. Письма из Парижа, с.94.

günlük müzakirədən sonra birgə komissiya noyabr ayının 1-də dörd maddədən ibarət İran-Azərbaycan İttifaqı haqqında saziş hazırladı.[137]

Ə.M.Topçubaşovla Nüsrət-üd-dövlə Firuz Mirzə arasındakı danışıqlar barədə sonuncu Tehrana mütamadi geniş məlumatlar verirdi. Bu məlumatlar "Heyət-e Fövqəladeye Qəfqaziyye" adlanan sənədlər toplusunda da öz əksini tapmışdır. Nüsrət üd dövlə Parisdən teleqrafla İran XİN-nə bildirmişdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəsi və Böyük Britaniya Xarici İşlər naziri Lord Kerzonla müfəssəl və faydalı danışıqlar aparılmışdır və təklif edilmişdi ki, müzakirələrin nəticəsi əldə ediləndən sonra bir heyət hazırlayıb Qafqaza ezam edilməlidir.[138]

İran Nazirlər Şurasının sədri Vüsuq-üd-dövlə 18 noyabr 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin istiqlalı münasibətilə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasına təbrik məktubu göndərdi. Məktubda ikitərəfli münasibətlərdə dostluq arzusu ifadə olunur və İranın Seyid Ziyaəddin Təbatəbai başda olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinə heyət göndərmək arzusu ifadə olunurdu.[139]

Qafqaz Fövqəladə Heyətinin sənədlərindən aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə İran arasında 1920-ci il mart ayının 20-də novruz bayramı axşamı on bir maddədən ibarət gömrük sazişi, doqquz maddədən ibarət ticarət sazişi, on səkkiz maddədən ibarət teleqraf əlaqələri haqqında saziş, on doqquz maddədən ibarət poçt əlaqələri haqqında saziş, iyirmi beş maddədən ibarət məhkəmə qərarlarının icrası haqqında saziş, on yeddi maddədən ibarət konsulluq əlaqələri haqqında saziş və ən nəhayət, Azərbaycan diplomatiyasının mühüm uğurlarından biri olan Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında dostluq haqqında müqavilə imzalandı.[140]

1920-ci il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti ilə İran şahənşahlıq dövləti arasında imzalanmış Dostluq müqaviləsi əsasında İran dövləti Azərbaycan Xalq Cümhuriyyətini tanıdığını rəsmən bildirirdi, bu mahiyyətcə "de-fakto" tanıma idi.

Dissertasiyanın "**Cənubi Azərbaycanda milli demokratik hərəkatların tarixi İran tarixşünaslığında**" adlanan üçüncü fəsli üç yarımfəsildən

---

[137] Топчибашев А.М. Письма из Парижа, с. 94-95.

[138] Heyət-e Fövqəladəye Qafqaziyye, sənəd 7, s.55.

[139] Yenə orada, sənəd 14, s.69.

[140] Həsənli C.P.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.376-377; Heyət-e Fövqəladeye Qafqaziyye, sənəd 318 əlavə , s.199-202.

ibarətdir. ***"Məşrutə hərəkatında azərbaycanlıların aparıcı rolunun dəyərləndirilməsi və Səttarxanın mübarizəsinə baxış"*** adlanan birinci yarımfəsildə Cənubi Azərbaycanda Səttar xanın başçılığı altında baş verən milli demokratik hərəkatın İran tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmış və dövrün mənbələrindən istifadə olunmaqla ətraflı təhlil edilmişdir.

İranda və Cənubi Azərbaycanda Məşrutə hərəkatının tarixi İran tarixçilərinin də daim diqqət mərkəzində olmuşdur. Cənubi Azərbaycanda Məşrutə hərəkatının gedişi haqqında ilk kitab hələ 1908-cu ildə 1908-1909-cu illər Təbriz üsyanının iştirakçısı olmuş Məhəmməd Bağır Vicueyi tərəfindən yazılmışdır.[141] Onun "Azərbaycan inqilabının və Təbriz üsyanını tarixi" əsərində həmin hadisələrin xronoloji təsviri verilmişdir.

İran tarixşünaslığında Məşrutə hərəkatının tarixinin araşdırılmasında geniş və çoxcəhətli diapozona malik olan Ə.Kəsrəvinin tədqiqatları mühüm yer tutur. Onun "İran məşrutə inqilabının tarixi" adlı 3 cilidlik əsərinin[142] mühüm hissəsi Cənubi Azərbaycanda inqilabi hadisələrə həsr edilmişdir. Ə.Kəsrəvinin kitabında Azərbaycanda həmin dövrdə baş vermiş hadisələr haqqında çoxlu faktiki və sənədli materiallar vardır.

XX əsrin ortalarında Məşrutə hərəkatının 50 illiyi ilə əlaqədar İranda bu hərəkatın tarixinə dair bir çox kitab və məqalələr, sənədlər toplusu işıq üzü görmüşdür. 1957-ci ildə Əli Kəmalvəndin kitabı nəşr edildi.[143] 1960-cı ildə Təbriz üsyanının iştirakçısı olmuş İsmayıl Əmirxizinin "Azərbaycan üsyanı və Səttarxan" adlı kitabı nəşr edildi.[144] İ.Əmirxizinin əsərində və S.H.Tağızadənin xatirələrində Məşrutə hərəkatının lideri Səttarxanın həyatı və mübarizəsi haqqında çox maraqlı materiallar öz əksini tapmışdır. İ.Əmirxizi kitabında Səttarxanın ailəsi, uşaqlıq və gənclik illəri, mövcud rejimə qarşı mübarizəsi haqqında bir çox yeni faktlar gətirmişdir.[145]

***"Şeyx Məhəmməd Xiyabani hərəkatı"*** adlanan ikinci yarımfəsildə bu milli demokratik hərəkatın İran tarixşünaslığında tədqiqi səviyyəsi təhlil edilmişdir. 1920-ci ilin aprel-sentyabr aylarında Cənubi Azərbaycanda Milli hökumətin yaradılması ilə nəticələnən M.Xiyabani hərəkatına dair İran tarixşünaslığında onlarla tədqiqat əsərləri, kitablar, xatirələr və məqalələr yazılmışdır.

---

[141] Vicueyi.M.B. Tarix-e enğelab-e Azərbaycan-bəlvayi Təbriz, Təbriz, 1908.
[142] Kəsrəvi Ə. Təbrizi. Tarix-e məşruteyi İran, 3 cilliddə,Tehran, 1940-1944
[143] Kəmalvənd Ə. Baskervill və enğelab-e İran. Tehran, 1957.
[144] Əmirxizi İ. Qiyam-e Azərbaycan və Səttarxan, Təbriz, 1960.
[145] Bax: Yenə orada, s.2-20.

Şeyx Məhəmməd Xiyabaninin həyatı və fəaliyyəti haqqında İran tarixçilərindən Ə.Kəsrəvinin, Z.Qiyaminin, H.Məkkinin əsərlərində[146] ətraflı məlumatlar vardır. Hüseyn Məkkinin "İranın iyirmi illik tarixi (1905-1925 гг.)" kitabı M.Xiyabani hərəkatına neqativ, qərəzli münasibətin yer aldığı kitablardan biridir. Əli Azərinin əsəri[147] Ş.M.Xiyabani və onun rəhbərlik etdiyi hərəkat haqqında ən müfəssəl və dəyərli tədqiqatlardandır. Üç fəsildən ibarət kitabda M.Xiyabaninin həyatı və mübarizsi geniş işıqlandırılmışdır.

Cənubi Azərbaycanın görkəmli ziyalısı və ictimai xadimi Salamullah Cavid özünün nisbətən kiçik həcmli "Xatirat dəftəri"ndə[148] M.Xiyabaninin şəxsiyyətinə və onun başçılıq etdiyi hərəkata xüsusi yer vermiş, hərəkatda olan müxtəlif təmayüllər arasındakı ziddiyyətlərə öz münasibətini bildirmişdir. Cənubi Azərbaycanlı ziyalılardan Səməd Sərdariniyanın "Azərbaycan məşhurları" kitabının[149] II cildində Ş.M. Xiyabani və onun silahdaşları haqqında məlumatlar vermişdir. Zöhrə Vəfalının kitabında[150] da M.Xiyabaninin fəaliyyəti barədə materiallar öz əksini tapmışdır. Xiyabaninin rəhbərliyi altında milli demokratik hərəkat təbrizli tarixçi Turac Atabəyinin tədqiqatında geniş tədqiq olunur.[151]

Ümumiyyətlə, M.Xiyabani hərəkatından yazan əksər İran tarixçiləri bu hərəkatın antiingilis səciyyə daşıdığını, bununla da həm də ingilislərin siyasətini müdafiə edən, onunla 1919-cu il avqust müqaviləsini bağlamış İran mərkəzi hakimiyyətinə qarşı demokratik hərəkat olduğunu qəbul edirlər.

Şeyx Məhəmməd Xiyabani Cənubi Azərbaycanda və bütün İranda imperializmə qarşı və demokratik azadlıqlar uğrunda mübarizə aparmış ictimai-siyasi xadimlər içərisində xüsusi yer tutur. İranın, o cümlədən Azərbaycanın XX əsrin əvvəllərindəki siyasi mühitində bişmiş M.Xiyabani müasiri olduğu Şərqin və Qərbin qabaqcıl ictimai fikrinin bəhrələrini mə-

---

[146] Qiyami Z. Şeyx Məhəmməd Xiyabani. Xatirat, Donya, XI , №4; Məkki H.H. Tarie-bistsaleye İran, c.1-3. Tehran: 1944-1946.

[147] Azəri Ə. Qiyame Şeyx Məhəmməd M.Xiyabani dər Təbriz, Tehran, 1329; Makki H. Tarix-bistsale-e İran, c.1-3. Tehran, 1944-1946.

[148] Salamullah C. Quşeyi əz xatirat. Tehran, Çapxaneyi Xacə, 1353, 49 s.

[149] Sərdariniya S. Məşahir-e Azərbaycan, II cild, Təbriz, 1364, 544 s.

[150] Vəfalı Z. Namavarane Azərbaycan, Təbriz, 1378, 98 s.

[151] Atabəyi T. Azərbaycan dər İran-e moaser, s.51-63.

nimsəyən, inqilabiliklə elmiliyi, nəzəriyyə ilə fəaliyyəti birləşdirə bilən nadir siyasi xadimlərdən idi.[152]

Üçüncü fəslin ***"Seyid Cəfər Pişəvərinin başçılığı ilə Azərbaycan Milli Hökumətinin qurulması və fəaliyyəti"*** adlı yarımfəslində S.C.Pişəvərinin başçılığı altında Azərbaycan Milli Hökumətinin yaranması və fəaliyyəti məsələlərinin İran tarixşünaslığında tədqiqi səviyyəsi öyrənilmişdir.

1945-1946-cı ildə Cənubi Azərbaycanda milli demokratik hərəkat, bu hərəkatın nəticəsi olaraq yaradılmış Milli Hökumətin tarixi XX əsr Azərbaycan siyasi tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Milli Hökumətin yaradılması, fəaliyyəti, həyata keçirdiyi tədbirlər, süqutu, hərəkatın lideri S.C.Pişəvərinin Sovet Azərbaycanında müəmmalı şəkildə ölümü hələ də tarixçilərin tədqiqat mövzusu olaraq gündəlikdə qalmaqda davam edir.

İran tarixşünaslığında Azərbaycan Milli Hökumətinin tarixi ilə əlaqədar məsələlərə bu hökumətin süqutundan sonrakı illərdə müxtəlif mövzuların tədqiqi zamanı ötəri toxunulmuşdur. Yalnız ölkədə 1979-cu ildə şahlıq rejiminin devrilməsindən sonra irticaçı şahlıq rejiminə qarşı XX əsrdə baş vermiş milli demokratik hərəkatlar, o cümlədən 1945-ci il dekabrın 12-də S.C.Pişəvərinin başçılığı ilə qurulan və bir il fəaliyyət göstərən Azərbaycan Milli Hökumətinin tarixi geniş tədqiqat mövzusuna çevrilmiş və bir sıra əsərlər yazılmışdır.[153]

Keçən əsrin 80-90-cı illərində Azərbaycan Mill Hökuməti və onun rəhbəri S.C.Pişəvərinin fəaliyyəti ilə bağlı tarixçilər və siyasətçilərlə yanaşı, həmin hadisələrin iştirakçılarının xatirələri nəşr edilmişdir. Hətta, bu hərəkatın İrandan mühacirət etmiş iştirakçılarının xarici ölkələrdə nəşr olunan kitab və məqalələrinin bəziləri fars dilinə tərcümə edilib Tehranda çap

---

[152]Birinci Beynəlxalq Azərbaycanşünaslıq simpozyumunun bildiri toplusu. Azərbaycan Elm və Mədəniyyət Araşdırma Mərkəzinin nəşri, Təbriz, "Keyhan", 1378, s.131.

[153]Əzimi Fəxrəddin. Bohran-e demukrasi dər İran 1320-1332. Tehran: 1374; Axərin Səngər-e Azadi. Məqalət-e Mir Cəfər-e Pişəvəri be kuşəş-e Rəhim Rəisniya. Tehran: 1377; Xanbaba Bəyani.Ğaile-ye Azərbaycan. Tehran: Enteşarat-e Zəryab, 1355; Qozəşte çerağ-e rah-e ayənde əst. Tehran: Enteşarat-e Qəqnus, 1364; Teymur Bəxtiyar. Seyri kommunizm dər İran-əz şəhrivər 1320 ta fərvərdin 1336.Tehran: Enteşarat-e Keyhan, 1336; Ustad Fəramərzi və ğəziye-ye Azərbaycan-be kuşeş-e Həsən Fəramərzi. Tehran: enteşarat-e Dastan, 1379; Rza Məhəmmədi. Azərbaycan əz səltənəte Rza єah ta doulət-e Piєevəri (1304-1324), Təbriz: 1392.

olunmuşdur.[154] T.Atabəyinin "Azərbaycan: etnik kimliyi və İranda hakimiyyət uğrunda mübarizəsi" adı ilə nəşr etdirdiyi kitabı təmayüllü yanaşma və dəyərləndirmələrdən xali olmasa da, müqayisədə Azərbaycanda milli-demokratik hərəkatlara həsr olunan tədqiqatlar işərisində daha elmi yanaşması və realist təhlili ilə seçilir.[155] T.Atabəyinin kitabında Azərbaycan Milli Hökumətinin iqtisadi, mədəni-maarif fəaliyyətləri, o cümlədən Azərbaycan dilinin inkişafı ilə bağlı tədbirlər,[156] seşki qanunu müxtəsər təhlil olunur. Müəllif etiraf edir ki, Azərbaycan Milli Məclisinin 8 yanvar 1946-cı il tarixli Seçki qanunu ilə İranda ilk dəfə olaraq qadınlara seçib-seçilmək hüququ verildi.[157] T.Atabəyi Azərbaycan Milli hökumətinin süqutu ilə nəticələnmiş prosesləri, İran hökumətinin Azərbaycana hərbi müdaxiləsi, silahlı müqavimətlə bağlı hökumət rəhbərliyində fikir ayrılıqlarını təhlil edir. O, tamamilə əsassız olaraq iddia edir ki, ordu hakimiyyəti ələ keçirərkən hər hansı bir ciddi maneə ilə rastlaşmadı.[158] Əksər xarici tədqiqatçılar kimi bəzi iranlı tarixçilər, o cümlədən T.Atabəyi də Azərbaycan Milli hərəkatını məğlubiyyətində böyük dövlətlərin əsas rol oynadığını etiraf edir.[159]

H.Mollazadənin "Azərbaycan Cumhuriyyəti – gələcəyə baxış" adlı əsərində S.C.Pişəvəriyə, onun başçılıq etdiyi Azərbaycan Milli Hökumətinin fəaliyyətinə obyektiv qiymət verilmişdir.[160] Onun fikrincə, 1945-1946-cı illərdə Azərbaycan hadisələrinə dair sənədlər həm İranda, həm də Azərbaycanda hələ də bağlı saxlandığı üçün həmin hadisələrin iştirakçılarının və şahidlərinin məlumatları bu hadisələr üzərindəki pərdəni götürməyə xidmət edir. H.Mollazadə "Xatirələr küçəsinə səyahət" və "Möhür-

---

[154] Xosrovpənah M.H. Sazman-e əfsəran-e hezb-e tude-ye İran 1323-1333. Tehran: Nəşre Şiraze, 1377; Con Furan. Tarix-e təhəvvulat-e ectemaiye Эran. Tehran: 1338; Atabəyi T. Azərbaycan dər İran-e moaser.Tehran: Enteşarat-e Tus, 1376.

[155] Atabaki T. Azerbaijan-ethnicity and the struggle for power in Iran. I.B.Tauris Publishers, London, New-york: 2000.

[156] Bax: Yenə orada, s.172-175, 191-192.

[157] Yenə orada, s. 174.

[158] Azərbaycan Demokrat Firqəsi, Azadlıq yolunun mübarizləri, II cild. Bakı: Azərbaycan, 1969, s.5.

[159] Atabəyi T. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi, s. 202.

[160] Cumhuriyye Azərbaycan- neqah be ayənde. Təbriz, enteşarat-e Ərk, 1373.

lənmiş sirlər" adlı əsərlərində[161]Milli Hökumətin fəaliyyətinə xüsusi yer vermişdir.

Dissertasiyanın "**Azərbaycan SSR-nin İranla münasibətlərinin İran tarixşünaslığında əksi**" adlanan və iki yarımfəsildən ibarət olan dördüncü fəslində sövet dövründə Azərbaycan SSR-in İranla münasibətlərinin İran tarixşünaslığında tədqiqi səviyyəsi tədqiq olunmuşdur.

***"1920-1940-cu illərdə Azərbaycan SSR-in İranla münasibətləri"*** adlanan I yarımfəslində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və ölkədə sovet rejiminin qurulması ilə təkcə Azərbaycanın siyasi tarixində deyil, həm də Azərbaycan-İran münasibətlərində yeni mərhələnin başlandığı qeyd olunur. Dövlət müstəqilliyinə son qoyulduqdan sonra Azərbaycan bolşeviklərin Şərq siyasətinin, xüsusən İranla baağlı siyasətinin həyata keçirilməsində əsas plasdarm rolunu oynamağa başladı.

1921-ci il fevralın 26-da Sovet Rusiyası ilə İran hökuməti arasında müqavilə bağlandı. Nəriman Nərimanov başda olmaqla Azərbaycan sovet rəhbərliyinin Moskvanın İranla bağlı həyata keçirdiyi siyasətdən narazılığına baxmayaraq,[162] Sovet hökuməti İrandan öz qoşunlarını çıxarmaq qərarına gəldi. İran tarixçisi A.Malikinin fikrincə, 26 fevral 1921-ci il müqaviləsi Xəzər dənizindən istifadə edilməsinə dair bəzi hüquqları İrana qaytardı.[163]

Azərbaycan SSR Sovet-İran diplomatik və siyasi münasibətlərinin yaradılmasında mühüm rol oynamağa başladı ki, bu birinci növbədə onun coğrafi-siyasi şəraiti ilə əlaqədar idi. 1920-ci ilin oktyabrında Astara vasitəsi ilə Azərbaycanla İran arasında teleqraf rabitəsi, dekabrda isə Bakı ilə Tehran arasında birbaşa teleqraf rabitəsi bərpa edildi. Moskva ilə Tehran arasında da teleqraf rabitəsi də Bakı vasitəsi ilə həyata keçirilirdi.[164]

Sovet hakimiyyəti yaradıldıqdan sonra, təqribən iki il ərzində, ZSFSR -nın təşkilinə qədər Azərbaycan SSR İranla müəyyən qədər müstəqil mü-

---

[161] Mollazadə H. Seyri dər kuçehayi xaterat- Təbriz əz şəhrivər-e 1320 ta enğelab-e eslami. Təbriz: enteşarat-e Ərk, 1373; Yenə onun: Razhayi – sər be mohr –naqoftehayi vəqaye-ye Azərbaycan. Təbriz: nəşriye-ye Hatef, 1376.

[162]Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair, s.13.

[163]А.Малеки. Иран и Туран: к вопросу об отношениях Ирана с государствами Центральной Азии и Закавказья // Центральная Азия и Кавказ, №5 (17), 2001, с. 109.

[164] Гасанов Н. Роль Азербайджанской ССР в установлении и укреплении советско-иранских дружественных отношений (1920-1925 гг.). Автореферат диссертации кандидата ист. наук. Баку: 1965, с.10.

nasibətlər qururdu. Zaqafqaziya Federasiyasının təşkilindən sonra bu münasibətlər İran-SSRİ münasibətləri kontekstində inkişaf etməyə başladı.[165]

Sovet-İran ticarət əlaqələrinin inkişafında 1922-ci ildən təşkil olunmağa başlamış Bakı yarmarkaları da mühüm əhəmiyyət kəsb edirdi. İran tacirləri yarmarkanın işində yaxından iştirak edirdilər. Azərbaycan mütəxəssisləri İranda yeni sənaye sahələrini yaradılmasında, o cümlədən pambıq təmizləmə zavodlarının, radiotelefon stansiyalarının tikintisində, Təbriz-Culfa dəmir yolunun bərpasında, onun mühəndis heyətlə, yanacaqla təchiz olunmasında, İranda ziyanvericilərlə, çəyirtkə ilə, heyvandarlıqda xəstəliklərlə mübarizədə yaxından iştirak etmişdilər, respublika qonşu ölkəyə bu məqsədlə xeyli materiallar və avadanlıqlar, maliyyə vəsaiti ayırmışdı.[166]

20-ci illərin birinci yarısında Azərbaycan İran-Sovet mədəni və təhsil əlaqələrində də əsas rol oynayırdı. Bakı şəhəri SSRİ-də İran tələbələrinin təhsil aldığı əsas mərkəzə çevrilmişdi.

Xəzər dənizinin ümumi Sovet-İran dənizi kimi hüquqi statusu ilk dəfə İranla SSRİ arasında 27 oktyabr 1931-ci il tarixil məskunlaşma, ticarət və dənizçilik haqqında Konvensiyada öz əksini tapmışdı. Konvensiyanın VIII maddəsinə görə Xəzər dənizində yalnız SSRİ və İrana məxsus gəmilər üzə bilərdi.[167]

1940-cı il martın 25-də SSRİ ilə İran arasında bağlanmış "Ticarət və dənizçilik haqqında" müqavilə Xəzər dənizinin hüquqi statusunun rəsmən müəyyənləşdirdi. Müqavilə hər iki dövlət üçün 10 mil milli zona müəyyənləşdirir və Xəzər dənizində ticarət gəmiləri üçün bərabərlik prinsipi təsbit edilirdi, başqa dövlətlərin gəmiləri üçün Xəzər dənizi qapalı elan edilirdi.[168]

Azərbaycanla İranın sərhədyanı ərazilərində yaşayan əhalinin əlaqələrini asanlaşdırmaq məqsədilə 1928-ci il mayın 28-də SSRİ ilə İran arasında Konvensiya imzalandı. Konvensiyaya görə sərhəd ərazisi hərə iki tərəfdən 25 km. zona müəyyənləşdirildi. Bu zonada yaşayanlar üçün sərhədləri daha

[165] Абдуллаев Я.З. ЗСФСР в развитии советско-иранских отношений (1922-1928 гг.). Автореф. дисс… канд. ист. наук. Баку: 1988, с. 16.
[166] Гасанов Н. Роль Азербайджанской ССР в установлении и укреплении, с.20-21.
[167] Советско-иранские отношения в договорах, конвенциях и соглашениях, с. 99-100.
[168] Вах: Советско-иранские отношения, с.128-144.

asan keçmə qaydaları müəyyənləşdirildi.[169] Lakin SSRİ-də inzibati-amirlik sisteminin sərtləşməsi ilə sərhədlərin hər iki tərəfində yaşayan insanlar arasında təmaslar məhdudlaşdırıldı və qadağan edildi. 1938-ci ildə SSRİ hökuməti bu konvensiyanın qüvvədən düşdüyünü rəsmən elan etdi.

Müharibə ərəfəsində SSRİ ilə İran arasında münasibətləri gərginləşdirən amillətdən biri də SSRİ-də "İran təbəələri" olan insanlara qarşı repressiya və deportasiyaların həyata keçirilməsi oldu. SSRİ XKS-nin "Əksinqilabi ünsürlərin Azərbaycandan İrana və SSRİ-nin uzaq rayonlarına köçürülməsi" haqqında 17 dekab 1937-ci il tarixli qərarı ilə Cənubi azərbaycanlılara qarşı repressiyalara başlanılmış, Bakıdan və Azərbaycanın sərhəd zonasından 2500 İran təbəəsinin və 700 ailənin çıxarılması nəzərdə tutulmuşdu. Bütövlkdə 13297 iranlı, onlardan 5994 nəfəri casus kimi məhkum edilmiş, 2048 iranlı 27 dekabr 1938-ci ildə güllələnmişdi.[170]

IV Fəslin ***"1950-1991-ci illər Azərbaycan SSR-in İranla münasibətləri"*** adlanan ikinci yarımfəslində qeyd olunur ki, SSRİ ilə İran arasında müharibədən sonrakı illərdə münasibətlərdəki gərginliyi aradan qaldırmaq üçün aparılan danışıqlar 1954-cü il dekabrın 2-də saziş imzalanması ilə başa çatdı. Həmin sazişlərə görə, iki ölkə arasında sərhədlər dürüstləşdirildi, müharibə dövründən qalma bir sıra maliyyə məsələləri öz həllini tapdı.[171] Azərbaycan ərazisində, Muğan sahəsində (Araz çayından Bulqarçayadək) və Astaraçayın yuduğu Əddə-Əvlər sahəsində SSRİ-nin İranla yeni sərhəd xətti müəyyənləşdirildi.[172]

Arazın sağ sahilindəki Hisar kəndi və keçmiş Abbasabad qalasının qarşısındakı topaq sahəsi İrana verilirdi. 1955-1957-ci illər ərzində sərhədlərin demarkasiyası və redemarkasiyası da həyata keçirildi. Bununla bağlı qəbul edilmiş yekun sənəddə tərəflərin bir-birinə ərazi iddialarının olmadığı, dövlət sərhədi ilə bağlı problemlərin qəti nizamlandığı qeyd olunurdu. 1957-ci il mayın 14-də Sovet-İran sərhəd rejimi haqqında və sərhəd münaqişələrinin nizamlanması qaydaları haqqında Müqavilə imzalandı. İran tarixçisi C.C.Rad yazır ki, 14 may 1957-ci ildə Moskvada İran nümayəndəsi general Əmənullah Cahanbaninin SSRİ tərəfi ilə imzaladığı sərhəd

---

169 Советско-иранские отношения, с.185-187.
170 http://ru.echo.az/?p=53622
171 Abdullayev Z., Aqasi N. Müasir İran. Bakı: Azərnəşr, 1976, s.159-160.
172 Cahanbani Ə. Mərz-e İran və Şurəvi. Tehran: 1336; Кулагина Л., Дунаева Е. Россия и Иран: история формирования границ. М .: Гуманитарий, 2007.

müqaviləsi ilə İranla Sovetlərin 2500 kilometrlik sərhəddi təsbit edildi, tərəflərin bir-birinə heç bir ərazi iddiasının olmadığı vurğulandı.[173]

Ümumiyyətlə, 60-70-ci illərdə SSRİ və İranın qarşılıqlı iqtisadi əməkdaşlıqda maraqlı olması tərəflər arasında siyasi və iqtisadi münasibətlərin inkişafına mühüm təsir göstərdi. İran və SSRİ arasında iqtisadi və mədəni münasibətlərə Azərbaycan SSR mühüm yer tuturdu. 1963-cü il iyulun 27-də bağlanmış "İqtisadi və texniki əməkdaşlığa dair" müqaviləyə əsasən Araz çayı üzərində su anbarından, SES və barajdan ibarət hidrotexniki kompleksin tikilməsi nəzərdə tutulmuşdu. Kompleks 8 ildən sonra – 1971-ci ildə istifadəyə verildi.

1960-1990-cı illərdə Azərbaycan SSR-in İran ilə iqtisadi əməkdaşlığının ən geniş yayılmış formasını xarici ticarət təşkil etmişdir. Azərbaycanın qonşu İran ilə ticarət əlaqələrinə ölkənin maşınqayırma, cihazqayırma, metallurgiya, neft, kimya, yüngül sənaye, tikinti və yeyinti sənaye müəssisələri cəlb olunmuşdu. Bakı ilə yanaşı, Naxçıvan, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Lənkəran və başqa sənaye şəhərlərinin müəssisələri qonşu ölkə üçün qiymətli avadanlıq və məmulat hazırlanmasında iştirak edirdi. 1960-1970-ci illərdə Azərbaycanın sənaye müəssisələrinin 30-u İrana 70 adda məhsul ixrac edirdi.[174]

1978-1979-cu illərdə İranda baş vermiş İslam inqilabı nəticəsində yaranmış yeni siyasi-ideoloji şərait İranın xarici siyasətində mühüm dəyişikliklərə gətirib çıxardı.[175] Hakimiyyətə gələn ruhanilər təbəqəsi "İslam inqilabının ixracı" ideyasını və "nə Qərb nə də Şərq" şüarını ölkənin xarici siyasətinin əsasına çevirdilər.[176] Yeni doktrinaya uyğun olaraq İran SSRİ-nin müsəlman respublikalarına öz təsirini artırmaq üçün ciddi səylər göstərməyə başladı. Belə şəraitdə Azərbaycan-İran mədəni əlaqələri, xüsusən mədəniyyət və incəsənət sahəsində əlaqələr demək olar ki, tamamilə kəsilmiş oldu.

Yalnız XX əsrin 80-ci illərin ortalarından başlayaraq SSRİ-də "Ye-

---

[173] Rad C.C. Tarix-e seyasiye Nəxcəvan. Tehran, 1379, s. 97.

[174] Саядов С.А. По законам интернационализма. М.: Мысль, 1983, с. 66.

[175] Кляшторная В.Б. Иран: 60-80-х годов: от культурного плюрализма к исламизации духовных ценностей (Идеология, политика. литература). М.: Наука,1990, с. 78.

[176] Qəniyev H. Azərbaycanla İranın iqtisadi və mədəni əlaqələri (1960-1990-ci illər) tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanin avtoreferatı. Bakı: 2013, s. 20.

nidənqurma" dövrünün başlanması ilə Azərbaycanla İranın mədəni münasibətləri yeni mərhələyə daxil oldu. Azərbaycan mədəniyyətinin, ədəbiyyatının bütün dünyada, o cümlədən İranda təbliğ edilməsi istiqamətində 1988-ci ildə yaradılmış "Vətən" cəmiyyəti səmərəli fəaliyyət göstərirdi.

Disertasiyanın "**Müstəqil Azərbaycan Respublikasının tarixi İran tarixşünaslığında**" adlanan və iki yarımfəsildən ibarət olan beşinci fəslinin ***"Şimali Azərbaycanda dövlət müstəqilliyinin bərpası və Azərbaycan Respublikasının xarici siyasəti məsələləri"*** adlı yarımfəslin Azərbaycan Respublikasının xarici siyasəti, o cümlədən İran İslam Respublikası ilə münasibətlərinin İran tarixşünaslığında tədqiqi səviyyəsi təhlil edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan və İran xalqlarının dil, mədəniyyət, din, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda, bir çox hallarda ortaq siyasi-mədəni tarixə malik olması iki ölkə arasında əlaqələrə təsir göstərən əsas amillərdən biridir. Regionda sabitliyin və inkişafın mövcud olması bir sıra digər amillərlə yanaşı, İran-Azərbaycan münasibətlərindən də çox asılıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra iki qonşu müsəlman dövləti arasında münasibətlərin yeni mərhələsi başlandı. İran İslam Respublikası 1992-ci il martın 12-də Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanıdı.[177] Bundan sonra sərhədlərdə gediş-gəliş asanlaşdı, iqtisadiyyat və humanitar sahələrdə əlaqələr möhkəmləndi və İranın Bakıdakı konsulluğu İran İslam Respublikasının Azərbaycandakı səfirliyinə çevrildi.

Lakin ikitərəfli siyasi münasibətlər ilk günlərdən müəyyən problemlərlə üzləşdi. SSRİ-nin dağılmasından sonra İran Cənubi Qafqazı özünün geosiyasi maraqları dairəsinə daxil edərək özünün geoiqtisadi problemlərini məhz bu region hesabına həll etməyə çalışırdı. 1993-cü ilin ortalarına qədər Azərbaycan Respublikasında İranla münasibətlərin əhəmiyyətinin düzgün qiymətləndirilməməsi iki ölkə arasında kəskin siyasi-ideoloji ziddiyyətlərin yaranması ilə nəticələndi. Yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanla İran arasında münasibətləri normallaşdırmaq, mehriban qonşuluq və əməkdaşlıq prinsipləri üzərində yenidən qurmaq mümkün oldu.

15 iyun 1993-cü il tarixində Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev Azərbaycan Repablikası Milli məclisinin həmin gün keçirən iclasındakı çıxışında belə bəyan etdi: "Hansı dövlətin daxili quruluşu,

---

[177] Qasımlı M. Azərbaycanın xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. Bakı: "Mütərcim", 2015, s. 567.

daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır... Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir”.[178]

1993-cü ilin oktyabrında İİR-nın Prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin Azərbaycana səfəri, 1994-cü ilin iyununda isə Prezident Heydər Əliyevin Tehrana rəsmi səfəri, qarşılıqlı səfərlər zamanı imzalanmış sənədlər İran-Azərbaycan münasibətlərinin yaxşılaşmasına təkan verdi və dövlətlərarası əlaqələrin etibarlı hüquqi bazasını yaratdı.

Ancaq bütün bunlarla yanaşı, İran-Azərbaycan münasibətlərində hələ də öz həllini gözləyən müəyyən problemlər mövcuddur. Bu problemlər arasında İran əhalisinin əhəmiyyətli hissəsini təşkil edən azərbaycanlıların milli-mənəvi, mədəni və siyasi hüquqları, İran-Ermənistan münasibətləri və Xəzərin hüquqi statusu kimi məsələlər hər iki ölkənin ictimai fikrində, həmçinin tarixşünaslığında daim müzakirə olunan problemlərdir.

İran tarixçisi T.Atabəyi 1990-ci illərin ortalarında Tehranda nəşr etdirdiyi “Azərbaycan müasir İranda” kitabında Azərbaycan Respublikasının ilk müstəqillik addımlarını təhlil etmiş, Xalq cəbhəsi hakimiyyətinin yanlış İran siyasətinin İranın da Azərbaycan siyasətinə təsirsiz qalmadığını vurğulamışdır.[179] O, Azərbaycanda 1993-cü ildə baş vermiş hakimiyyət dəyişikliyinin əsas səbəbini Ə.Elçibəyin prezident olduğu müddətdə ifrat Türkiyə yönlü siyasət aparmasının xalqda xəyal qırıqlığı yaratması ilə bağlayır, ifrata vararaq vurğulayırdı ki, “Türkiyə tərəfindən Azərbaycana göstərilən kömək, gözlənildiyinin əksinə olaraq, məhəbbət hissindən başqa heç nə ifadə etmirdi”.[180]

Ə.K.Behnaz “Cumhuriye Azərbaycan” kitabında qeyd edir ki, Azərbaycan müstəqilliyini əldə etdikdən az sonra İran Bakıdakı Baş konsulluğunu səfirliyə çevirərək öz xarici siyasətində bu ölkəyə xüsusi önəm verməyə başladı. Xalq Cəbhəsinin bir illik hakimiyyəti zamanı iki ölkə münasibətlərində durğunluq yaşansa da, Heydər Əliyevin hakimiyyətə qayıt-

---

[178] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun 1993-may 1994. I Kitab, s. 11.

[179] Atabəyi T. Azərbaycan dər İran-e moaser.Tehran: Enteşarat-e Tus, 1376.

[180] Atabəyi T. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi, s. 219.

ması ilə İran İslam Respublikasının Azərbaycan Respublikası ilə siyasi əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoydu.[181]

İranın Azərbaycan Respublikası ilə münasibətlərinə dair İranda nəşr edilmiş əsərlər arasında H.Mollazadənin tədqiqatlarının xüsusi önəmi vardır. Azərbaycan Respublikasında baş verən hadisələri yaxından izləyib təhlil edən müəllif ölkəmizdə müstəqilliyin ilk illərində yaranmış vəziyyəti əsasən doğru təhlil etmiş, tarixi proseslərə əhatəli və düzgün qiymət vermişdir.[182] Əsərdə Ermənistanın işğalçılıq planları və Azərbaycan torpaqlarının işğal altına düşməsi, ermənilərin ikinci erməni dövləti qurmaq cəhdləri və dünya ermənilərinin Qarabağ müharibəsinə dəstək göstərdiklərinə xüsusi yer verilməsi diqqəti cəlb edir.[183] İran tarixşünaslığında Azərbaycanın müasir tarixinin təhlilinə həsr edilmiş əsərlər arasında B.Ə.Əhmədiyanın 2005-ci ildə nəşr etdirdiyi "İran-Azərbaycan Respublikası münasibətləri (azərilərin İrana baxışı)" əsəri diqqəti cəlb edir.[184] B.Ə.Əhmədiyan İranın Azərbaycan Respublikasına qarşı ərazi iddiaları irəli sürməsini, İranda Azərbaycan Respublikasının adının yerinə "Arran" və "Şirvan" terminlərinin işlədilməsini, Bakı şəhərinin "Badkubə" yazılması kimi təxribatçı təkliflər irəli sürür, bununla da İranla Azərbaycan arasında münasibətlərin korlanmasında maraqlı olduğunu biruzə verir.[185]

V Fəslin ***"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Naxçıvan məsələsinə münasibət"*** adlanan ikinci yarımfəslində İran tarixçilərinin əsərlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Naxçıvan məsələsinə münasibət məsələlərinin tədqiqi səviyyəsi aydınlaşdırılmışdır.

İran İslam Respublikasında Azərbaycanla bağlı aparılan tədqiqatların mühüm istiqamətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin araşdırılması təşkil edir. Bir çox hallarda bu tədqiqatlar erməni tarixçilərinin illər boyu yazdıqlarını sadəcə fars dilində şərh etməkdən ibarət olmuşdur. Ermənilərin Azərbaycan torpaqlarına təcavüzünün ilk günlərindən İran hökuməti Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ziddiyyətli

---

[181] Behnaz Ə.K. Cumhuriye Azərbaycan. Tehran: 1375, s.125.
[182] Mollazadə H. Cumhuriye Azərbaycan – neqah be ayənde.Təbriz, Enteşarat –e Ərk, 1373.
[183] Yenə orada, s. 45-50.
[184] Əhmədiyan B.Ə. Rəvabet-e İran və Comhuri-ye Azərbaycan (negah-e azəriha be İran). Tehran, 1384,
[185] Yenə orada, s. 33.

mövqe nümayiş etdirmişdir. İran sözdə özünü sülhün və ədalətin tərəfdarı kimi göstərərək, münaqişənin həllində öz vasitəçiliyini təklif etsə də, qeyd edildiyi kimi, təcavüzkarla təcavüzə məruz qalan ölkə arasında heç bir fərq qoymayaraq işğalçı Ermənistana qarşı hər hansı əməli tədbir görməmiş, əksinə təcavüzkar ölkə ilə sıx iqtisadi-siyasi əməkdaşlıq qurmuşdur.

İran bütün beynəlxalq təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşlərində Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxdığını, bu ölkənin ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, heç zaman Ermənistandan öz qoşunlarını Azərbaycan ərazisindən çıxarmağı, işğal olunmuş torpaqları azad etməyi tələb etməmişdir. Əksinə, İran bu dövlətə hərtərəfli yardım göstərməklə dolayısı yolla onun işğalçılıq siyasətinin davam etməsini dəstəkləyir.

İranda Qarabağ hadisələrinə həsr edilmiş ilk əsərlərdən biri K.Bayatın "Qarabağ böhranı" adlı kitabıdır.[186] Müəllif münaqişənin kökləri və müasir vəziyyəti ilə bağlı məsələyə obyektiv yanaşdığını iddia etsə də, onun istinad etdiyi mənbələr, gəldiyi nəticələr bunun tamamilə əksini göstərir. Ermənilərin işğalçılıq hərəkətlərinə haqq qazandıran müəllif yazır ki, ermənilər üçün Qarabağ məsələsi yalnız bu məntəqənin Ermənistan Respublikasına birləşdirmək istəyindən doğan bir məsələ deyildir, Qarabağ həm də müdafiə nöqteyi nəzərindən Ermənistan üçün həlledici əhəmiyyətə malikdir. Müəllif belə bir nəticəyə gəlir ki, Qarabağı əldə etmək ermənilərə təkcə Qarabağ ermənilərinin Ermənistana birləşmək istəyi ilə əlaqədar deyil, həm də Zəngəzurun ehtibarlı müdafiəsini təmin etmək üçün lazım idi.[187]

P.Z.Şahmərəsi "Qarabağnamə: qədim zamanlardan müasir dövrə qədər" adlı əsərinin "Böhran, münaqişə və müharibə" adlanan VII fəslini 1988-1993-cü illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr etmişdir.[188] O, Qarabağ münaqişəsində ümumən Azərbaycanı haqlı və zərərçəkən, Ermənistanı isə işğalçı tərəf kimi göstərsə də, İran dövlətinin rəsmi mövqeyindən çıxış edərək, Azərbaycanın müstəqillik illərində yürütdüyü xarici siyasəti tənqid edir və Azərbaycanın ayrı-ayrı siyasətçilərinə və siyasi qüvvələrinə qarşı bəzi əsassız ittihamlar səsləndirir.

---

[186] Bəyat K. Bohran-e Qərabağ. Tehran: İnteşarat-e Pərvin, 1372.
[187] Yenə orada, s. 135-136.
[188] Bax: Şahmərəsi P. Z. Qarabağname: əz ədvar-e kohən ta doure-ye moaser. Tehran: Şirazə nəşriyyatı,1389, s. 345-532.

Bütövlükdə İran tarixçilərinin Azərbaycan Respublikasının tarixi, xarici siyasəti və İran İslam Respublikası ilə qarşılıqlı münasibətlərnə həsr edilmiş əsərləri İranda Azərbaycanşünaslığın səciyyəvi xüsusiyyətlərini, əsas istiqamətlərini və meyllərini öyrənmək baxımıdan müəyyən əhəmiyyət kəsb etsə də, bu əsərlərə tənqidi elmi yanaşma ilə müraciət edilməli, onların müsbət və mənfi cəhətləri təhlil edilib dəyərləndirilməlidir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir və praktik tövsiyələr verilir.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. 1918-1920 illerde Nahçıvan bölgesi'nin korunması uğrunda Türkiye'nin mübarizəsi. /"XII. Türk Tarih Kongresi", Ankara: 12-16 Eylül, 1994, s. 340-359.
2. Məşrutə inqlabının tədqiqində qiymətli kitab. //"Varlıq" jurnalı, Tehran, 1377(1998), yay-payız, № 109, s. 91-94.
3. İran tarixşünaslığında kəsrəviçilik və onun yeni təzahürləri. // Tarix və onun problemləri. Nəzəri, Elmi, Metodik jurnal 3, Bakı-1998, s. 191-196.
4. İran tarixşünaslığında Azərbaycan xalqının təşəkkülü məsələsinə dair (Turəc Ətabəkinin "Müasir İranda Azərbaycan" əsəri haqqında). //Tarix və onun problemləri, Nəzəri, Elmi, Metodik jurnal 4, Bakı-1998, s. 185-190.
5. İran türklerinin eski tarihi. // "Bilge" jurnalı, Ankara, 1991, yaz 21, s. 81-84.
6. Qarabağ problemi İran tarixşünaslığında. //Tarix və onun problemləri, Nəzəri, Elmi, Metodik jurnal 1, Bakı-1999, s. 204-208.
7. "Azadlığın son səngəri" kitabı haqqında. //"Varlıq" jurnalı, Tehran: 1378(1999), bahar-yay, № 112-113, s. 109-118.
8. Azərbaycanın tarixi-coğrafiyası İran tarixşünaslığında (Azərbaycan, yoxsa Arran). //"Tarix və onun problemləri" nəzəri, elmi, metodik jurnal, 3/4, Bakı, 1999, s.198-203.
9. Türkiyə-Azərbaycan münasibətləri İran tarixşünaslığında (1918-1921-ci illər). //"Beynəlxalq həyat" elmi, ictimai-siyasi jurnal, № 3(7), Bakı, 1999, s.81-87.

10. Şeyx Məhəmməd Xiyabani və Seyid Əhməd Kəsrəvi münasibətləri. //"Səhər" jurnalı, Təbriz, 1379(2000), № 7-8, s. 12-18.
11. "Azərbaycan Cümhuriyyətinin İrandakı ilk səfiri" məqaləsi haqqında. //"Varlıq" jurnalı, Tehran, 1379 (2000), yaz-yay, № 116, s. 47-54.
12. Xiyabani hərəkatı: ittihamlar və həqiqətlər. //"Varlıq" jurnalı, Tehran, 1379(2000), yaz-yay, № 117, s. 69-79.
13. Şeyx Məhəmməd Xiyabani İran tarixşünaslığında (Xiyabani və Seyid Əhməd Kəsrəvi). //"Tarix və onun problemləri" elmi, metodik jurnal, 2, Bakı, 2000, s.134-140.
14. "Hey′əte fövqəl′adeye Qafqaziyye" sənədlər toplusunda İran-Azərbaycan Cumhuriyyəti münasibətləri haqqında (1918-1920). //"Tarix və onun problemləri" elmi, metodik jurnal, 3/4, Bakı, 2000, s. 201-210.
15. İran tarixçiliyində "Azərbaycan haradır?" məsələsi. //"Səhər" jurnalı, Təbriz, (1379)2000, s. 3-9.
16. Naxçıvanda Araz Türk hökuməti. //"Varlıq" jurnalı, Tehran, 1380 (2001), № 121, s. 97-103.
17. "İrəvan müsəlman yurdu olmuşdur" əsəri haqqında.// "Varlıq" jurnalı, Tehran, 1380(2001), № 122, s. 13-17.
18. "Naxçıvanın siyasi tarixi" kitabı: Yaxın tariximizin kobud saxtalaşdırılması. //"Tarix və onun problemləri" nəzəri, elmi, metodik jurnal, 3/4, Bakı, 2001, s.161-168.
19. Səməd Sərdariniyanın "İrəvan müsəlman yurdu olmuşdur" kitabı haqqında. //"Tarix və onun problemləri" nəzəri, elmi, metodik jurnal, 2, Bakı, 2002, s.196-199.
20. Medieval culture of Azerbaijan and its influences in Iran, Afghanistan, Pakistan and India. //"Pakistan journal of history and culture", July-December, 2007, s. 151-164.
21. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı: Təhsil, 2011, 270 s.
22. Naxçıvan tarixinin bəzi məsələləri İran tarixşünaslığında. //"Xəbərlər" ictimai və humanitar elmlər seriyası, №3, Naxçıvan, "Tusi", 2016, cild 12, s.139-147.

23. Language and culture of Azerbaijani people in research works by the Iranian historian Ahmad Kasravi. //«Язык и культура», Выпуск 18, том IV (179), Киев, 2016, s. 123-128.
24. Вопросы формирования азербайджанского народа, его языка и культуры в иранской историографии. //Проблеми всесвiтньоi iсторii», Науковий журнал, Киев, № 2, 2016, s. 219-230.
25. Вопрос о роли Азербайджана в движении за конституцию в Иранской историографии. //Схiдний свiт, The world of the orient. Kiyev, 2016, №4, c. 65-73.
26. İran tarixşünaslığında Şah İsmayıl Xətainin şəxsiyyətinə münasibət. / Xətainin Qılınc və Qələmi mövzusunda respublika elmi konfransının Materialları. Bakı: 2017, s. 258-260.
27. Azərbaycan Milli Hökumətinin (1945-1946) süqutu və S.C.Pişəvərinin ölümü İran tarixçilərinin əsərlərində. //"Tarix və onun problemləri", Bakı: 2017, s. 297-308.
28. Azərbaycan Xalq Cumhuriyyətinin Türkiyə ilə əlaqələri bəzi İran tarixçilərinin əsərlərində. //"Tarix, insan və cəmiyyət" elmi-nəzəri və elmi-metodik jurnal, 3(18), Bakı: 2017, s. 21-34.
29. I Dünya müharibəsi illərində Cənubi Azərbaycanın Urmiya bölgəsində Azərbaycan Türklərinə qarşı Soyqrımı İran müəlliflərinin əsərlərində. // AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri, Xüsusi Buraxılış, c. 64, 65, 66. Bakı: 2017, s. 418-424.
30. İranın Qafqaz siyasətində Azərbaycan məsələsi İran tarixşünaslığında (1991-1999). /Qafqazşünasların I Beynəlxalq Forumu, 17-18 aprel, Elmi məruzələr, I kitab. Bakı: 2017, s. 125-132.
31. Sovet dövründə Azərbaycan İran münasibətləri İran tarixşünaslığında (1920-1940-cı illər). //"Tarix, insan və cəmiyyət", elmi-nəzəri və elmi-metodik jurnal, 2017, 4(19), s. 3-14.
32. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri) Bakı: "Turxan" NPB, 2017, 292 səh.
33. Xiyabani hərəkatı İran tarixşünaslığında – tarixi reallıq və fərqli yanaşmalar. //AMEA Tarix İnstitutu, Elmi əsərlər, 2017, 68-ci cild, s.90-103.
34. History of Azerbaijani people and formation of its language in İranian historiography. //Nineteenth-Century Prose, United States Naval Academy, Vol. 47, İssue 1, 2017, p.78-91.

PhD in philosofy, Assoc.professor E.Y.Madatli

## Issues of the 20th century Azerbaijan history in the Iranian historiography

## Summary

The dissertation work is devoted to one of the most actual problems of the history of Azerbaijan - the studying level of research of the 20th century Azerbaijani historical issues in Iranian historiography. The author having drawn views of Iranian historians' on the problem to a critical analysis has revealed their main approach to it. The chronological framework of the research covers modern Iranian historiography shaped as a field of science in the 20th century.

The dissertation work consists of the Introduction, 11 paragraphs, 5 chapters, the Conclusion and the list of used literature (bibliography).

In the Introduction, the relevance of the subject is justified, the chronological framework of the study, the level of studying and the source database are elucidated, goals and objectives of the research are determined, the scientific novelty is grounded; the theoretical and methodological basis, practical significance, as well as information on approbation and structure of the dissertation is given.

In Chapter I of the thesis entitled as ***"General conceptual approach to the history of Azerbaijan in the historiography of Iran",*** by using the sources of the period the historical geography and history of statehood of Azerbaijan, attitude of the Azerbaijani people to such problems as the shaping of language and culture, were analyzed.

In Chapter II entitled as ***"The assessment of the history of the Azerbaijan People's (Democratic) Republic in the Persian historiography",*** the establishment of the Azerbaijan Democratic Republic and its interrelations with the Gajar Iran were investigated in Iranian historiography and by using the primary sources were analyzed. As noted by the author, along with the ancient statehood traditions of Azerbaijan, most Iranian historians spoke against modern history of the statehood, in particular demonstrating the non-historical approach to the establishment and activity of the Azerbaijan Democratic Republic. Their position has been thoroughly analyzed in the chapter.

In Chapter III of the dissertation entitled as *"The history of national democratic movements in the South Azerbaijan",* was investigated the level of studying of the national-democratic movement in South Azerbaijan in 1905-1911, the movement led by Sheikh Muhammad Khiyabani in 1920 and the activities of the National Government of Azerbaijan that operated under the direction of Seyyid Jafar Pishavari in 1945-1946, in the historiography of Iran.

In Chapter IV of the dissertation entitled as ***"The reflection of interrelations between the Azerbaijan SSR and Iran in the historiography of Iran"*** is examined the level of studying of the interrelations of Azerbaijan SSR and Iran during the Soviet era in the Iranian historiography.

In Chapter V entitled as ***"The history of the independent Azerbaijan Republic*** *in the historiography of Iran****"*** was investigated and critically analyzed the level of studying of the restoration of state independence in North Azerbaijan and the foreign policy of the Republic of Azerbaijan, the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict and Nakhchivan issue in Iranian historiography.

In the ***"Conclusion"*** of the dissertation the main scientific-theoretical results obtained during the research are systematized and summarized and practical recommendations are given.

**д.ф.ф. Э. Я. Мадатли**

# «Вопросы истории Азербайджана XX века в иранской историографии»

## Резюме

Диссертация посвящена одной из самых актуальных проблем истории Азербайджана – исследованию вопросы истории Азербайджана XX века в иранской историографии. В своей диссертации автор подверг критическому анализу взгляды иранских историков и выявил основные их подходы в исследовании различных аспектов истории Азербайджана XX века. Хронологические рамки исследования охватывают иранскую историографию XX века. Диссертация состоит из введения, 5 глав, 11 параграфов, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность, хронологические рамки, степень изученности, источниковая база, цели и задачи исследования, методологическая основа диссертации, научная новизна темы, теоретическая и практическая значимость, степень апробации исследования.

В первой главе диссертации под названием *«Общий концептуальный подход к истории Азербайджана в иранской историографии»* на основе первоисточников и иранской историографии были проанализированы вопросы исторической географии, истории государственности Азербайджана, проблемы формирования азербайджанского народа, его языка и культуры.

Во второй главе диссертации, озаглавленной *«Оценка истории Азербайджанской Демократической Республики в иранской историографии»,* на основе иранской историографии и первоисточников была изучена история создания Азербайджанской Демократической Республики и ее отношений с Гаджарским Ираном. Как отметил автор, большинство иранских историков, наряду с древними традициями, отрицают современную историю государственности Азербайджана, в частности, демонстрируя ненаучный подход к истории образования и деятельности Азербайджанской Демократической Республики. В главе тщательно проанализированы основные положения работ данных авторов.

В третьей главе диссертации под названием *«История национальных демократических движений в Южном Азербайджане в иранской историографии»* исследуется степень изученности в иранской историографии проблемы национально-демократического движения в Южном Азербайджане в 1905-1911 гг., восстания в Тебризе в 1920 г. под руководством шейха Мухаммеда Хиябани, деятельности национального правительства во главе с С.Дж.Пишевари в 1945-1946 гг.

В четвертой главе диссертации, озаглавленной *«Отражение в иранской историографии взаимоотношений Азербайджанской ССР с Ираном»*, исследуется степень разработанности в иранской историографии проблемы взаимоотношений Азербайджанской ССР с Ираном.

В пятой главе диссертации под названием *«История независимой Азербайджанской Республики в иранской историографии»* исследуется степень изученности в иранской историографии периода независимой Азербайджанской Республики, её внешней политики, армяно-азербайджанского Нагорно-карабахского конфликта и проблемы Нахчывана.

В заключение диссертации полученные в ходе работы над темой основные научно-теоретические результаты систематизируются и обобщаются, даются практические рекомендации.

Format 60x84 - 1/16 , F.ç.v. 3,75.

Tirajı 100 nüsxə

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**Мадатли Эйнулла Ядулла оглы**

# ВОПРОСЫ ИСТОРИИ АЗЕРБАЙДЖАНА XX ВЕКА В ИРАНСКОЙ ИСТОРИОГРАФИИ

**Специальность: 5503.02 – Отечественнная история**
**5509.01 – Источниковедение, историография, методы исторического исследования**

## АВТОРЕФЕРАТ

**Диссертации на соискание ученой степени доктора наук по истории**

**БАКУ - 2018**